QARABAĞ AZƏRBAYCANDIR!

**2023 - Heydər Əliyev irsinin öyrənilməsi ili**



4



SƏS

№ 018 (6701) 1 fevral
2023-cü il. Qiymәti 60 qәpik

## Azərbaycan-Macarıstan: dünyaya ortaq baxışlar



2

# İranın Azərbaycandakı casus şəbəkələri: xalq ayıq-sayıq olmalıdır!



10



## Qərbi Azərbaycan İcmasının müraciəti BMT sənədi kimi yayılıb

3

### Türkiyə və Azərbaycan: dost, qardaş və strateji müttəfiq!



3

### Müasir təhsilin inkişafında əsas meyarlar nədir?



9

### Ermənistanın seçimi: Qərb, yoxsa Rusiya?



12

### Azərbaycan Beynəlxalq Məhkəmədə: erməni iddiaları at-üst oldu!



14

# Azərbaycan-Macarıstan: dünyaya ortaq baxışlar

*İlham Əliyev: "Ölkələrimiz arasındakı dostluq əlaqələri həm ölkələrimiz üçün, eyni zamanda, Avrasiya qitəsi üçün də çox böyük önəm daşıyır"*





Azərbaycan və Macarıstan arasında dərin köklərə malik sıx əlaqələr müasir dövrümüzdə dövlət başçılarının səyləri ilə yüksək səviyyədədir. Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Macarıstanla ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindəndir. Ölkələrimiz arasında siyasi əlaqələr yüksək səviyyədədir və ikitərəfli münasibətlər dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq əsasında inkişaf edir. "Biz uzun illərdir ki, bir-birimizlə sıx təmasdayıq. Bizi dostluq əlaqələri bağlayır. Ölkələrimiz arasındakı dostluq əlaqələri həm ölkələrimiz üçün, eyni zamanda, Avrasiya qitəsi üçün də çox böyük önəm daşıyır". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Budapeştdə mətbuata bəyanatla çıxışı zamanı bildirib.

Macarıstan Azərbaycanın strateji tərəfdaşı və Avropa İttifaqında ən etibarlı tərəfdaşlarından biridir. Prezident İlham Əliyevin Macarıstan Prezidenti xanım Katalin Novakın dəvəti ilə bu ölkəyə rəsmi səfəri xüsusi önəm kəsb edir. Səfərin məqsədi ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdir. Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstan Prezidenti xanım Katalin Novak ilə geniş tərkibdə görüşü zamanı ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Xüsusilə, Macarıstanın Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə daim dəstək göstərdiyi qeyd edilib. Macarıstanın Cənubi Qafqaz regionu, həmçinin Xəzər dənizi hövzəsi və Mərkəzi Asiya ölkələri ilə əlaqələrinin inkişafı qeyd olunub. Görüşdə, bir sıra məsələlərlə yanaşı, həmçinin minaların təmizlənməsi sahəsində əməkdaşlığa da toxunulub. Cənab Prezident mətbuata bəyanatla çıxışı zamanı bildirib ki, əməkdaşlıq üçün vacib olan digər sahə minatəmizləmə sahəsidir: "Azərbaycan İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində bu sahədə böyük problemlərlə üzləşib, bir milyondan çox mina təmizlənməlidir. Müharibədən sonra iki il ərzində 300-ə yaxın Azərbaycan vətəndaşı ya həlak olub, ya da ki, ağır yaralanıb. Ona görə bu sahədə Macarıstanın təcrübəsini nəzərə alaraq biz əməkdaşlıq üçün yaxşı imkanlar görürük. Bununla paralel olaraq, bu gün, eyni zamanda, macar şirkətlərinin azad edilmiş Qarabağ və Zəngəzur torpaqlarında fəaliyyəti ilə bağlı da fikir mübadiləsi aparılmışdır. Yaxın gələcəkdə, bəlkə də bir həftə bundan sonra biz konkret layihələrin müzakirəsinə başlayacağıq. Biz çox maraqlıyıq ki, şəhərsalma istiqamətində hansı ki, Macarıstanın çox böyük təcrübəsi var, biz birgə işləyək. Çünki on min kvadratkilometrə bərabər olan azad edilmiş torpaqlarda bir daş daş üstə qalmayıb. Bütün binalar, bütün infrastruktur işğal dövründə dağıdılıb və biz, əlbəttə ki, bu bölgələri yenidən canlandıracağıq. Artıq Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilib".

### "HƏQİQƏTƏN MACARISTAN VƏ AZƏRBAYCAN DOST VƏ STRATEJİ TƏRƏFDAŞDIRLAR"

Qeyd edək ki, Macarıstan işğaldan azad edilmiş ərazilərimizdə minatəmizləmə fəaliyyətinə dəstək məqsədilə könüllü töhfə olaraq 25 min avro ianə edib. Macarıstan Azərbaycanla enerji sahəsində əməkdaşlığa mühüm önəm verir. Bu ölkə Cənub Qaz Dəhlizi layihəsini dəstəkləyir və bu layihəyə qoşulmaqda maraqlıdır. İki ölkə arasında nəqliyyat, tranzit və logistika sahələrində də əməkdaşlıq mövcuddur. Ötən il bu sahədə birgə Anlaşma Memorandumu imzalanıb.

Hər iki dövlət həqiqətən də dost və tərəfdaş ölkələrdir. Bu münasibətlər artıq strateji tərəfdaşlıq kimi müəyyən edilib. Əməkdaşlığın strateji mahiyyətini təsdiqləyəcək sənədə imza atılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstanın Baş naziri Viktor Orbanın Azərbaycan Respublikası ilə Macarıstan arasında genişləndirilmiş strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması strateji tərəfdaşlığı təsdiqləyir."Bu, strateji tərəfdaşlığa dair imzalanmış ikinci sənəddir və bir daha onu göstərir ki, həqiqətən Macarıstan və Azərbaycan dost və strateji tərəfdaşdırlar", - deyə Prezident bildirib. Bəyannamədə tərəflər ikitərəfli əməkdaşlığın bütün sahələri, həmçinin beynəlxalq və regional məsələlər üzrə strateji dialoqu davam etdirməyə hazırlıqlarını ifadə edirlər. Sənəddə, eyni zamanda, Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində əməkdaşlığın bundan sonra da inkişaf etdiriləcəyi qeyd olunur və TDT-nin Macarıstandakı Nümayəndəlik Ofisinin fəaliyyəti xüsusi vurğulanır.

### "ARTIQ İKİ İLDİR Kİ, AZƏRBAYCAN AVROPA İTTİFAQI MƏKANINA ÖZ TƏBİİ QAZ RESURSLARINI ÇATDIRIR"

"Vaxtilə tarixə qovuşmuş sayılan NABUKKO layihəsini biz indi canlandırmışıq. Artıq interkonnektorlar vasitəsilə Azərbaycan qazı Bolqarıstana, ondan sonra Rumıniyaya, ondan sonra Macarıstana və Macarıstandan sonra digər Avropa ölkələrinə çatdırılacaq", - deyən Prezident bu barədə də müzakirələr aparıldığını qeyd edərək bildirib ki, Macarıstan təkcə Azərbaycan qazının istehlakçısı deyil, eyni zamanda, Azərbaycan qazını digər Avropa ölkələrinə tranzit edən ölkə kimi fəaliyyət göstərəcək.

"Əlbəttə ki, uzun illər ərzində apardığımız uğurlu siyasət, birgə addımlar bu gün enerji sahəsində əməkdaşlıq üçün də çox güclü zəmin yaratdı" - deyən Cənab Prezident vaxtilə NABUKKO layihəsi üzərində böyük işlər aparıldığını da diqqətə çəkib. NABUKKO layihəsi Rusiyanın Ukraynanı işğalından daha öncəki dövrə təsadüf edir. O zaman təbii ki, enerji resursları Avropaya nəql edilmədi. "Azərbaycan öz qaz resurslarını Avropa bazarlarına çatdırmaq üçün fəal çalışırdı və nəticə etibarilə iki il bundan əvvəl Cənub Qaz Dəhlizi icra edildi" - deyən Prezident bunun çox müasir enerji infrastrukturu olduğunu bildirib: "Uzunluğu 3500 kilometrdir və artıq iki ildir ki, Azərbaycan Avropa İttifaqı məkanına öz təbii qaz resurslarını çatdırır. Keçən il Avropa Komissiyası ilə imzaladığımız sənədə əsasən, biz qaz təchizatımızı iki dəfə, bəlkə ondan da çox artırmağı planlaşdırırıq. Bunun üçün resurslar da var, siyasi iradə də var və tərəfdaşlarımızla təmaslar da var".

### "AVROPA İTTİFAQI ARASINDA ƏN YAXIN TƏRƏFDAŞLARIMIZDAN BİRİ OLAN MACARISTANLA ƏMƏKDAŞLIQ ÜÇÜN ÇOX YAXŞI İMKANLAR VAR"

İki ölkə arasında əməkdaşlıq üçün strateji əhəmiyyət kəsb edən demək olar ki, bütün məsələlər müzakirə olunub. Xalqlar arasında son illər ərzində əlaqələrin və ənənəvi əməkdaşlığın gücləndirilməsinə töhfə verilib. Macarıstanın Türk Dövlətləri Təşkilatına qoşulmasına Azərbaycan dəstək vermişdir. Macarıstan türkdilli dövlət kimi həmin platformada iştirak edən ölkədir ki, bu da mədəni, o cümlədən siyasi baxımdan əhəmiyyət kəsb edir. "Bizim əməkdaşlığımızın böyük hissəsi enerji məsələlərinə həsr olunsa da, təkcə bu məsələlərlə məhdudlaşmır. Biz, eyni zamanda, nəqliyyat sahəsində çox böyük planlarımızı həyata keçiririk",- deyə Cənab Prezident bəyanatında bildirib. Dövlətimizin başçısı deyib ki, dəmir yolları vasitəsilə Macarıstandan Azərbaycana, Azərbaycandan Macarıstana yüklərin ötürülməsinə başlanılıb, bu layihənin böyük potensialı var, çünki Rusiya-Ukrayna müharibəsindən sonra Azərbaycan ərazisindən keçən yüklərin həcmi kəskin artıb. "Təkcə keçən il tranzit yüklərin həcmi 75 faiz artmışdır. Azərbaycanda mövcud müasir nəqliyyat infrastrukturu - istər tankerlər, gəmilər olsun, istər böyük dəniz ticarəti limanı olsun, dəmir yolları olsun, bunlar hamısı müasirdir və bütün lazımi tələblərə cavab verir. Ona görə Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkə olsa da, hesab edirəm ki, Avrasiyanın önəmli nəqliyyat-logistika mərkəzlərinin birinə çevrilə bilər. Burada Avropa ölkələri ilə və xüsusilə bizim üçün Avropa İttifaqı arasında ən yaxın tərəfdaşlarımızdan biri olan Macarıstanla əməkdaşlıq üçün çox yaxşı imkanlar var", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Prezident İlham Əliyevin Macarıstana səfəri ikitərəfli əlaqələrə öz müsbət təsirini göstərəcək, iki ölkə arasında münasibətlərdə yeni səhifə açacaq.

***Zümrüd BAYRAMOVA***

## *Rəsmi xronika*

Səbuhi Zəhmət oğlu Şahverdiyev Naxçıvan Muxtar Respublikasının prokuroru vəzifəsindən azad edilib. SİA-nın xəbərinə görə, bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 23 fevral tarixli 66 nömrəli Fərmanının ləğv edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 785-VIQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.



# Türkiyə və Azərbaycan: dost, qardaş və strateji müttəfiq!

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan YAP Gənclər Birliyinin nümayəndə heyətini qəbul edib*

Türkiyə Cümhuriyyətinin Prezidenti, hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) Sədri Rəcəb Tayyib Ərdoğan Ankarada səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin nümayəndə heyətini partiyasının mərkəzi qərargahında qəbul edib.

Nümayəndə heyətini salamlayan Rəcəb Tayyib Ərdoğan Türkiyə ilə Azərbaycan arasındakı nümunəvi dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin əhəmiyyətindən bəhs edib. Ədalət və İnkişaf Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında çoxşaxəli əlaqələrin inkişafına toxunan Türkiyə Prezidenti hakim partiyaların gənclər qolları arasında əməkdaşlığın genişləndirilməsinin böyük önəm daşıdığını və hər iki tərəf üçün faydalı olduğunu söyləyib.

Səmimi qəbula görə təşəkkürünü bildirən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov yüksək səviyyədə təşkil olunan səfərin və keçirilən görüşlərin YAP Gənclər Birliyi ilə AK Parti Gənclik Qolları arasında əməkdaşlığın dərinləşdirilməsinə geniş imkanlar yaratdığını bildirib. B.İslamov hər iki partiyanın gənclərinin liderlər cənab İlham Əliyevlə cənab Rəcəb Tayyib Ərdoğanın qardaşlıq münasibətlərini örnək götürdüyünü diqqətə çatdırıb. O, qarşıdan gələn seçkilərdə Rəcəb Tayyib Ərdoğana rəhbərlik etdiyi nümayəndə heyəti adından uğurlar arzulayıb.

Xatırladaq ki, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamovun rəhbərlik etdiyi nümayəndə heyətinə Gənclər Birliyinin sədr müavinləri Fəsli Nəbiyev, Sevinc Qasımova və üzvləri Nərmin Qocaman, Kənan Kərimov daxildirlər.





# Qərbi Azərbaycan İcmasının müraciəti BMT sənədi kimi yayılıb

**Müraciətin yayılması indiki Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsinin beynəlxalq müstəviyə gətirilməsi sahəsində böyük uğurdur**

Məlum olduğu kimi, Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi Qərbi Azərbaycan İcmasının beynəlxalq ictimaiyyətə müraciətini BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayıb. Müraciət BMT-nin bütün rəsmi dillərində (ingilis, fransız, rus, Çin, ərəb və ispan) olmaqla adıçəkilən əsas orqanların gündəliyinin silahlı münaqişələrin qarşısının alınması, sülh quruculuğu, qaçqınların hüquqlarının qorunması, irqi ayrı-seçkiliyin aradan qaldırılması, insan hüquqlarının təşviq olunması, soyqırımının, etnik təmizləmənin və insanlığa qarşı cinayətlərin qarşısının alınmasına dair bəndləri altında yayılıb. Bildirilib ki, müraciətin yayılması indiki Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsinin beynəlxalq müstəviyə gətirilməsi sahəsində böyük uğurdur: ”Məsələnin BMT-nin ən mötəbər orqanlarının gündəliyinin qeyd edilən bəndləri ilə əlaqələndirilməsi azərbaycanlıların öz evlərinə qayıtmasının təməl insan hüquqlarının qorunması, beynəlxalq sülhün, təhlükəsizliyin və əməkdaşlığın bərqərar olması üçün zəruri olmasının beynəlxalq müstəvidə təsdiqidir. Bu uğur icmamızı sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə geriyə qayıtmaq istiqamətində səylərini davam etdirməyə daha da ruhlandırır. Qərbi Azərbaycan İcması qeyd edilən müraciətin yayılmasına şərait yaratmasına görə BMT-nin katibliyinə təşəkkür edir”.

**QƏRBİ AZƏRBAYCAN İCMASININ BEYNƏLXALQ İCTİMAİYYƏTƏ MÜRACİƏTİ BMT SƏNƏDİ KİMİ YAYILIB**

Müraciətin yayılması indiki Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsinin beynəlxalq müstəviyə gətirilməsi sahəsində böyük uğurdur. Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olaraq Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşüb. Belə bir deyim var: Tarixinə sahib çıxan xalq məğlubedilməzdir. Bəli, bunu Azərbaycan xalqı, bütün dünya gördü ki, Müdrik Lider, Böyük strateq, Qalib Sərkərdə Qarabağın 30 il davam edən işğalına Ali Baş Komandanımızın nəyi, nə vaxt edəcəyi ilə ”Dəmir Yumruq” siyasətinə əməl edən Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə 44 gündə son qoydu. Prezident İlham Əliyev dekabrın 24-də Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşündə bir daha bu əminliyi ifadə etdi ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız Qərbi Azərbaycana qayıdacaqlar.

Bəli, dövlət başçımızın dediyi kimi: ”Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında. Nəyi




ediriksə, dəqiqliklə edirik”. Bəli, 2020-ci il sentyabrın 27-dən başlayan 44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycanın hərbi-siyasi Qələbəsinin və Ermənistanın kapitulyasiyasının təsdiqi olan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanması, məhz dövlət başçımızın nəyi, necə, nə vaxt etməsinin göstəricisidir. Prezident İlham Əliyev cənablarının Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşü zamanı yaddaqalan digər məqam isə, təşkilatın ”Azərbaycan Qaçqınlar Cəmiyyəti” adının cari ilin avqust ayından Qərbi Azərbaycan İcmasına çevrilməsidir: ”Bildiyinizə görə, avqust ayında Azərbaycan Qaçqınlar Cəmiyyəti Qərbi Azərbaycan İcmasına çevrilmişdir və mən hesab etdim ki, ən düzgün yer, ən düzgün qərargah məhz bu bina olmalıdır. Təkcə ona görə yox ki, bu, çox gözəl binadır, dördmərtəbəlidir və burada fəaliyyət göstərmək üçün bütün imkanlar var, Heydər Əliyev Mərkəzi ilə demək olar ki, üzbəüz yerləşir. Əsas səbəb o idi ki, burada vaxtilə yerləşmiş Qarabağın məcburi köçkünlər icması artıq öz torpaqlarına qayıdır. Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar”. Həmin görüşdə dövlət başçımız bildirdi: ”Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar”Qərbi Azərbaycan İcmasının sədr müavini, millət vəkili Ramil Həsənin Qayıdış Konsepsiyası ilə bağlı açıqlamasında bildirib ki, Konsepsiyanın hazırlanmasında əsas məqsədlərdən biri beynəlxalq təhlükəsizliyin təmin edilməsidir:”Bilirsiniz, qərbi azərbaycanlılar 1905-1906, 1918-1923, 1948-1953 və nəhayət, 1988-1991-ci illərdə öz yurdlarından qovulublar. Konsepsiya bu proseslər nəticəsində yurd-yuvalarından qovulmuş azərbaycanlıların və onların hüquqi varislərinin geri qayıtmasının təmin edilməsi, onların təhlükəsiz şəkildə yaşayışının təmin edilməsi, eyni zamanda, lazım olan iqtisadi-sosial təminatlarının həyata keçirilməsi, həmçinin Ermənistan hökumətindən tələb etmiş olduğumuz haqlı tələblərimizin yerinə yetirilməsi ilə bağlı beynəlxalq zəmanətin alına bilməsi ilə əlaqədar müddəaları özündə ehtiva edir”.

Belə olan halda Ermənistan hökuməti BMT tərəfindən və BMT-yə üzv olan bütün dövlətlər tərəfindən tanınan öhdəlikləri, eyni zamanda, milli azlıqlarla bağlı üzərinə götürdüyü öhdəlikləri həyata keçirməsi ilə bağlı məsuliyyət daşımaqdadır. Həmçinin, Ermənistan tərəfi bu qayıdışın təminatını həyata keçirməklə bağlı öz məsuliyyətini dərk etməlidir. Bu gün Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi Qərbi Azərbaycan İcmasının beynəlxalq ictimaiyyətə müraciətini BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayması indiki Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsinin beynəlxalq müstəviyə gətirilməsi sahəsində böyük uğurdur.Gün gələcək Qərbi azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqlar. Necə ki, Azərbaycan xalqı, bütün dünya gördü ki, Müdrik Lider, Böyük strateq, Qalib Sərkərdə Qarabağın 30 il davam edən işğalına Ali Baş Komandanımızın nəyi, nə vaxt edəcəyi ilə ”Dəmir Yumruq” siyasətinə əməl edən Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə 44 gündə son qoydu. Və Qərbi azərbaycanlılar da o günü görəcəklər. Dövlət başçımızın dediyi kimi: ”Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar”.

**RƏFİQƏ HÜSEYNOVA**

# 2023 - Heydər Əliyev irsinin öyrənilməsi ili

"Şuşa ili"ndən "Heydər Əliyev ili"nə keçid - "Heydər Əliyev ili" ilə bağlı dövlət başçısının müvafiq sərəncamı özündə Azərbaycan xalqının bu günü və gələcəyi üçün xüsusi əhəmiyyət daşıyan məsələlərin həllini ehtiva edir. Bilirik ki, Şuşanın azad olunması Ümummilli lider Heydər Əliyevin ən böyük arzularından biri idi. Üç il əvvəl Azərbaycan xalqı bir millət, bir ölkə olaraq özünü Heydər Əliyevin 100 illiyini alın açıqlığı ilə qarşılamağa səfərbər etdi. Ölkə başçısı cənab İlham Əliyev də ilk növbədə Ali Baş Komandan, daha sonra oğul olaraq ata qarşısında öz missiyasını layiqincə yerinə yetirdi. Ümummilli liderin 100 illiyinə bundan böyük töhfə ola bilməzdi. Heydər Əliyev sovet dövründə Şuşanın qorunmasında, ona mədəniyyət məkanı kimi ali status qazandırılmasında müstəsna xidmətləri olan şəxsiyyətdir. 1982-ci ildə Şuşada Vaqif məqbərəsini tikdirməsi, daha sonra ardıcıl şəkildə Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı təşəbbüsü, Azərbaycanın bütün mədəniyyət sferalarının diqqətinin bu hadisəyə cəmləyə bilməsi sovet dövrünün özündə çox epoxal hadisə idi. Artıq üç ilə yaxındır ki, biz Şuşa ilə bağlı müxtəlif mədəni tədbirlər, səfərlər gerçəkləşdiririk. Ötən il prezidentin sərəncamı ilə "Şuşa ili" elan olunmuşdur. Bu sərəncamdan irəli gələn mühüm mədəni tədbirlərin şahidi, iştirakçısı olduq. Ardınca isə Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edildi. Bunlardan sonra yeni sərəncamın "Heydər Əliyev ili" olması eyni milli-mənəvi hərəkat daxilində davam tapan prosesdir. Diqqət etsək görərik ki, prezidentin imzaladığı son sərəncamlar öz ətrafında ümummilli məfkurə ruhunu, azərbaycançılıq ideologiyasının prinsiplərini birləşdirir. Bu sərəncam da ümumxalq səviyyəsində diqqətləri Heydər Əliyev şəxsiyyəti, onun siyasi fəaliyyətinin bütün tərəflərinə, zəngin idarəedicilik irsinə cəmləyərək daha fundamental işlər görməyə, daha konseptual məsələləri həyata keçirməyə bir növ vasitə olacaq. Və biz bununla əslində, yenə də azərbaycançılıq amalının, vətən, millət sevgisinin bir liderin tərcümeyi-halında necə bütöv şəkildə ehtiva olunduğunun bütün çalarlarını görmüş olacağıq.



*ELNARƏ AKİMOVA*
*YAP İdarə Heyətinin üzvü, filologiya elmləri doktoru*



### 2023 - Heydər Əliyev irsinin öyrənilməsi ili

"Heydər Əliyev ili" hər bir instansiyanın qarşısında ilk növbədə müəyyən missiya qoyur, daha sonra hədəfləri müəyyənləşdirir. Bu il bütün fəaliyyət sahələri üçün həm də mənəvi-siyasi hesabat mərhələsidir. Yəni, ümumilikdə XX əsrdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət olan Heydər Əliyevin irsi bu vaxta qədər də layiqincə öyrənilən predmet olub. Bunu meydanda olan çoxsaylı nümunələr sübut edir. Amma bu sərəncam Ulu Öndərin irsinin öyrənilməsində daha geniş hüdudlara varmaq üçün geniş imkanlar qazandırır. Əvvəla, Ümummilli liderin kolossal zəhmət qoyduğu işlər dövlətçiliyin simasını müəyyən edən tarixi xidmət olaraq araşdırılmalıdır. Bu sərəncamın reallaşması prosesində Heydər Əliyev şəxsiyyətinin xarici ölkələrin maraqları kontekstində olduğunu da unutmamalıyıq. Nəzərə alsaq ki, Ümummilli lider bütün dünyada birmənalı qəbul edilmiş qüdrətli şəxsiyyətdir, o zaman məsuliyyət daha da artır. Heydər Əliyev obrazını dünya xalqlarının nəzər nöqtəsindən dəyərləndirmək maraqlı nəticələr verə bilər. M.Baxtinin dəqiq deyilmiş bir fikri var: "Özgə mədəniyyət yalnız başqa mədəniyyətin gözü ilə özünü dərindən göstərir". Bu həm də həmin mədəniyyəti yaratmış şəxslərə də aidlənəcək fikirdir. Heydər Əliyevin siyasi fəaliyyətini tanış sistemlərlə bərabər, qeyri-tanış sistemlərlə görüşdürmək onun nəhəngliyini meydana qoymaq baxımından əlverişli olardı.

### Heydər Əliyev və Azərbaycançılıq ideologiyası

Azərbaycançılıq məfkurəsi Ulu Öndər Heydər Əliyevin taleyüklü məsələ kimi yanaşdığı mühüm ideoloji istiqamət olmuşdur. O, milli dövlətçilik düşüncəsini - əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla, əsrin sonlarına doğru - müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurmuşdur. Xalqımızın milli həmrəyliyini və birliyini təmin etmək, milli-mədəni irsi və mənəvi-əxlaqi dəyərləri qoruyaraq zənginləşdirmək, ölkəmizdə yaşayan müxtəlif millətlərin və dinlərin nümayəndələrini öz ətrafında birləşdirmək, xarici ölkələrdə yaşayan azərbaycanlıların həmrəyliyinə və təşkilatlanmasına çalışmaq, ümummilli ideologiya kimi siyasi münasibətlərin fövqündə dayanmaq və s. kimi çoxyönlü fəaliyyəti ilə o, azərbaycançılıq məfkurəsini milli ideologiya səviyyəsinə qaldırmış, onun əsasında vətəndaş həmrəyliyi və ümumxalq birliyi yaratmağa nail olmuşdur.

Ümummilli lider hələ hakimiyyətinin birinci mərhələsində milli-mənəvi dəyərlərin, milli ruhun qorunması, kadrların milliləşdirilməsi, azərbaycançılıq ideologiyasının sistem halına salınması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirmişdir. 1990-cı illərdən sonra isə artıq praktik şəkildə bu ideologiyasının icrasına başlanıldı. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam", - deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail oldu. Bu böyük şəxsiyyətin vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərdən biri milli dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli olan azərbaycançılıq ideyasını irəli sürməsi, onu milli diasporun təşkilatlanması üçün ideoloji təmələ çevirməsidir. 1997-ci ildə Heydər Əliyev ABŞ-a rəsmi səfəri zamanı Azərbaycan diasporu qarşısında çıxışında bu istiqamətdə əsas prinsipləri belə müəyyən etmişdir: "Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda Azərbaycan da irəli gedər, Azərbaycan diasporu da inkişaf edər... Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan". Dünya azərbaycanlılarının potensial imkanlarını cəmləmək, onları müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həllinə yönəltmək, bununla əlaqələri möhkəmləndirmək Heydər Əliyevin diaspora ilə sistemli çalışmalarının nəticəsindən doğan müsbət hallar idi. Onun təşəbbüsü ilə 2001-ci ilin 9-10 noyabr tarixlərində Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilmişdir. Milli həmrəyliyimizin nümayişinin ən yaddaqalan tədbirlərindən olan bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi üçün şərait yaratmışdır.

Ümumilikdə bu qurultay dövlətimizə nə verdi? Azərbaycan dilinin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, Azərbaycanın beynəlxalq nüfuzunun daha da artırılması, müxtəlif ölkələrdə dilimizin, tariximizin, mədəniyyətimizin yüksək səviyyədə təbliği, Ermənistanın təcavüzkarlıq siyasətinin ifşası, bədnam erməni lobbisinə qarşı sistemli və ardıcıl əks-hücumun təşkili məsələləri qurultayın qarşıya qoyduğu başlıca vəzifələr olmuşdur. Həmin qurultaydan sonra Azərbaycan diaspor hərəkatı tamamilə yeni mərhələyə qədəm qoymuşdur. Ümummilli lider Heydər Əliyev bu sahədə sistemli dövlət siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə 2002-ci ildə "Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin yaradılması barədə" fərman imzalamışdır. Dünya azərbaycanlılarının konsolidasiyasında, diaspordan lobbiyə doğru inkişafında yeni bir mərhələnin başlanğıcını qoyan bu komitə qısa müddətdə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası və Azərbaycan dövləti ətrafında birləşməsi istiqamətində xeyli iş görməyə müvəffəq olmuşdur.

### Milli mədəniyyət və ədəbiyyatımızın inkişafında Heydər Əliyev mərhələsi

Heydər Əliyevin mədəniyyət, ədəbiyyatla bağlı gördüyü işlərin miqyası heç bir ölçüyə sığmır. Bu barədə nə qədər danışsaq azdır. Ulu Öndərin ədəbiyyat, sənətlə bağlı elədiyi çıxışlar mükəmməlliyi ilə seçilir, şeirdən danışanda poeziyanın, nəsrdən danışanda prozanın dərin bilisici təəs-sürətı doğururdu. Bu da onun ədəbiyyata sevgisindən, mütaliəsiz bir gün də keçirməsiyindən qaynaqlanan amildir.

Milli düşüncənin intibahı, milli ruhu diri saxlamaq meyli onun tərcümeyi-halının ən işıqlı tərəfini təşkil edir. Bu kontekstdə onun obrazını necə xarakterizə etmək olar? Həm azərbaycançılıq ruhunu bütün siyasi-mənəvi aşamalardan bütöv və zədəsiz çıxaran böyük azərbaycanlı, həm də bütün dünya mədəniyyət və dəyərlərinə tolerant və multikultural aspektdən yanaşmağı bacaran dünya insanı! Heydər Əliyev üçün hər zaman əsas amal milli birlik, milli vəhdət olmuşdur. Onun azərbaycançılıq təliminin ana yapısında dayanan başlıca məqam elə bundan qaynaqlanırdı. İqtisadi coğrafiyanı böyük quruculuq işləriylə, mənəvi coğrafiyanı isə milli-mənəvi dəyərlərin Azərbaycana qaytarılmasıyla gerçəkləşdirən Heydər Əliyevin atdığı bütün addımlar milli məfkurənin gəlişməsinə imkan yaratmaq məqsədi güdürdü. Heydər Əliyev bu məqsədə doğru sovet hakimiyyətinin ən kəskin dövrlərində yüksək tribunada təmsil olunarkən irəliləmiş, yüksək kürsülərdən Azərbaycanın sözünü deməyə cəsarət və hünər göstərmişdir.

Azərbaycançılıq ideologiyasının formalaşması prosesində Ulu öndər Hey-dər Əliyevin istinad etdiyi ünvan daim klassik irs və milli-mənəvi dəyərlər olmusdur.

Ardı Səh. 5





# 2023 - Heydər Əliyev irsinin öyrənilməsi ili

Əvvəli Səh.4

Məsələn, Heydər Əliyev ”Kitabi-Dədə Qorqud” dastanının yubileyinin keçirilməsi ilə bağlı sərəncam imzalayırdı və qeyd edirdi ki, əgər indi biz ”Kitabı-Dədə Qorqud” dastanının 1300 illiyini qeyd ediriksə və bunu bütün dünyaya bəyan ediriksə, demək, bizim bədii sözümüzün 1300 illik tarixi göz qabağındadır. Yaxud Nizami Gəncəvinin 840 illiyinin keçirilməsinin zəminində öz dəyərlərini tanımaq, onu layiqincə dünyada təbliğ etmək meyli olmasaydı deyərdimi ki, biz Nizami ilə bəşəriyyəti qovusdurmağa tələsirik?!

Eləcə də böyük şair Füzulinin yubileyinin həm Azərbaycanda, həm bütün türk-islam aləmində, həm də Rusiya və Avropada böyük təntənə ilə keçirilməsinə rəvac verirdisə, bunu ilk növbədə, XX əsrdə parçalanmış türk dünyasını birləşdirmək, yaxınlaşdırmaq üçün edirdi. 1982-ci ildə Cavidin nəşini Sibirdən Azərbaycana qaytarmaqla türklük ruhunu, turan əxlaqını millətin özünə qaytarırdı. Eyni ildə Şuşada Vaqif məqbərəsini ucaltmaq onun üçün Qarabağ xanlığının timsalında Azərbaycan dövlətçiliyinin rəmzi, Vaqif poeziya günləri Azərbaycan dilinin əbədi təntənəsinin rəmzi idi. Yaxud Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 90 illik yubileyinin keçirilməsi ilə bağlı 1997-ci ildə imzaladığı tarixi sərəncamla həmişə amalına çevirdiyi bütöv Azərbaycan idealının gerçəkləşməsinə doğru növbəti əhəmiyyətli addımlardan birini həyata keçirirdi. Hər bir addımında ölçülü-biçili, gələcəyə hədəflənmiş siyasət! Düşünülmüş idimi? Birmənalı şəkildə! Heydər Əliyev xalqın milli qürurunu ölməyə, yadlaşmağa, yaddaşsızlaşmağa qoymurdu. Əks təqdirdə, bu xalqın 1990-cı illərdə milli müstəqilliyini yenidən qazanması mümkünsüz olardı.

Ulu Öndərin 1993-cü ildən sonrakı qayıdış mərhələsi də asan dövrə sirayət etmədi. Amma hər cür hərc-mərclik, mənəvi-milli deqradasiya, siyasi-hərbi kataklizm, sosial böhran şəraitində belə onun fəaliyyətində müasir və klassik sənətkarlarımızın taleyinə həssas münasibət davamını tapdı. Həmin çətin dövrdə Heydər Əliyevin mətbuata verdiyi bütün müsahibələrdə mənəvi məsələ, milli düşüncəyə xidmət yenə də ilk unudulmaz sıralarda qərar tutur. Böyük siyasətçi dəfələrlə vurğulayırdı ki, ”respublikamızın bu ağır dövründə böyük yubileylər keçirilməsi, şübhəsiz ki, müəyyən qədər çətinliklərlə üzləşəcək. Ancaq bunlara baxmayaraq, həyatımızın mənəvi sahəsi heç vaxt unudulmamalıdır. Çətinliklər nə qədər çox olsa da mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik”.



## Heydər Əliyev və multikultural dəyərlər

Heydər Əliyevin dövlətçilik siyasətində multikulturalizm prioritet yerlərdən birini tuturdu. Onun bu barədə çox yayılmış bir fikri var. Qeyd edir ki, ”Azərbaycanın vətəndaşları dini, irqi, siyasi, dil mənsubiyyətindən asılı olmayaraq, hamısı eyni hüquqa malikdir və onların hüquqları Azərbaycan tərəfindən qorunur və mühafizə olunur. Siz əmin ola bilərsiniz ki, biz bu məqsədlərimizə, bu prinsiplərimizə daim sadiq olacağıq və gələcəkdə də Azərbaycan vətəndaşlarının dini mənsubiyyəti, yaxud dil mənsubiyyəti, siyasi mənsubiyyətindən asılı olmayaraq, bir-birilə münaqişəyə girməsinə yol verməyəcəyik”.

Heydər Əliyev cəmiyyətdə yaşayan hər xalqın etnik-mədəni dəyərlərinə böyük önəm verirdi, bildirirdi ki, dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Akademik Kamal Abdulla ”Müstəqillik illərində multikulturalizm və tolerantlıq” kitabında bir məqamı doğru qeyd edir ki, Ümummilli lider Heydər Əliyev öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalasmış Azərbaycanın çoxmədəniyyətlilik, yəni multikultural ənənəsini bərpa edərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı”.

Əslində bu gün ölkə başçısı, cənab İlham Əliyevin bütün dünyada nümunə sayıla biləcək multikulturalizm siyasətinin kökündə Heydər Əliyevin müəyyənləsdirdiyi mədəniyyət siyasəti dayanır. Bugünkü mənzərə həmin ali məqamı, Azərbaycan multikulturalizminin Heydər Əliyev tərəfindən işlənmiş ideya əsaslarını yüksək səviyyədə idrak etməyə imkan verir. Diqqət edək. ”İslam Həmrəyliyi ili”, ”Multikulturalizm ili” və bunların ardınca gələn müxtəlif tədbirlər, ideoloji müşavirələr, multikultural ideyaların intişar arenasına çevrilən Azərbaycanın sivil, modern dünyada yeri, nüfuzu, ünsiyyət məkanı kimi hər cür müzakirələrə açıq və hazır olması Heydər Əliyevin ideal və məramının yaşarılığının sübutudur. Vacib bir məqamı da qeyd edim ki, Heydər Əliyevin təşəbbüsü ilə multikulturazlimlə bağlı məsələlər hüquqi sənədlərdə, o cümlədən, Konstitusiyada əks olunmuşdur. Eləcə də multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq prinsipi Konstitusiyanın bir sıra maddələrində təsbit edilib. Bu gün ölkə başçısı, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin də siyasətində milli məfkurəyə istinad xətti konsepsiya, təlim səviyyəsində gerçəkləşir. Onun ard-arda imzaladığı - ”Multikulturalizm ili”, ”İslam həmrəyliyi ili”, ”Azərbaycan Xalq Cümhuriyyəti ili”, ”İmadəddin Nəsimi ili”, ”Nizami Gəncəvi ili”, ”Şuşa ili” və nəhayət, bu il böyük coşğu ilə qeyd edəcəyimiz ”Heydər Əliyev ili” kimi sərəncamlar mədəniyyətin inkişafına, tarixi yaddaşın bərpasına, eləcə də layiqli şəxsiyyətlərin misilsiz xidmətlərinə dəyər qazandırmaq, onları yeni düşüncə kontekstindən incələməyə imkan yaratmaq, ən kiçik nüansı belə bədii-estetik yaddaşın məxəzinə çevirmək baxımından müstəsna addımdır.

## Heydər Əliyev irsinin milli-mədəni kontekstdə təşviqi

Heydər Əliyev minillik dövlətçilik tariximizdə milli məfkurəyə istinad edən ilk və yeni Azərbaycan dövlətinin qurucusudur. Ona qədər Azərbaycan idarəedicilik tarixində belə bir siyasi kontekstin olmadığı hər kəsə bəllidir. Heydər Əliyev son yüz ilin Azərbaycan tarixinə yada, rəqibə bir metr də olsun torpaq verilməsinə imza atmamış yeganə öndər və lider kimi daxil olub. Bu, onun öndərlik tərcümeyi-halında bəlkə də, ən ali şərəfli məqamdır. Heydər Əliyev torpağı qorumağı ona görə bacarırdı ki, dəyərlərinin gücünü bilirdi, ona torpaq qədər sahib çıxmağı bacarırdı. Bilirdi ki, ən böyük güc xalqı bir yerə cəm edəcək milli ideologiyanın varlığından keçir. Heydər Əliyev ədəbiyyatını, tarixini dərindən bilən şəxs olaraq, zaman-zaman törədilən faciələrin nədən zəmin aldığını çox gözəl bilirdi və gələcək tarixi belə siyasi-hərbi aşınmalardan qorumağa çalışırdı. Məhz bu, gücün sayəsində biz 2020-ci ildə 44 günlük müharibədə zəfər çala bildik. Bu, həm də Heydər Əliyev ideallarının qələbəsi idi ki, öz layiqli varisinin əməllərində gerçəklik qazandı. Onun dil və din, mental və yaddaş, mənəvi-əxlaqi dəyərlər kontekstində ehtiva olunan sahiblik şüuru, bir yumruqda cəm olaraq milli birliyi qorumağı strateji xəttin əsas konsepsiyasına çevirmək əzmi İkinci Qarabağ savaşında qazandığımız Zəfərin cövhəri oldu. O zəfər ki, Heydər Əliyevin səsləndirdiyi əsas məramın hədəfi idi. Bax, bu ali məqam, zəfərə gətirən strateji xəttin bütün nüansları, yəni Heydər Əliyev ideyalarının layiq olduğu şəkildə araşdırılıb meydana qoyulması əsas mətləb, ana qayə olmalıdır. Çünki bir dahi, bir siyasi xadimi yaşadan amil onun ideyalarıdır.

Ötən il noyabrın 28-də ölkə başçısı İlham Əliyevin sərəncamından irəli gələn tədbirlər planı təqdim olundu. O tədbirlər planı ”Heydər Əliyev ili”ndə görülməsi lazım olan işləri bütün dərinliyi və müxtəlifliyi ilə əks etdirir. Ümumiyyətlə, bütün hallarda görülən işlər Heydər Əliyevin adına layiq olmalıdır. Amma bir mühüm məqamı nəzərdən qaçırmaq olmaz. Heydər Əliyevlə bağlı iş görməyə çalışan şəxs gərək onun zəngin dühasına və dünyasına kongenial olsun. Cəlil Məmmədquluzadənin həmkarı Mirzə Fətəli Axundzadənin bədii yaradıcılığının tədqiqi ilə bağlı söylədiyi məşhur bir fikir var. Deyirdi ki, Axunzadədən ya yaxşı yazmaq lazımdır, ya da heç nə yazmamaq lazımdır. Bu yanaşma ümumiyyətlə, bizim milli sərvətimiz olan hər şəxsiyyətə münasibətdə meyar olmalıdır. Heydər Əliyev də xalqın milli sərvətidir. Onun yüz illiyi ilə bağlı imza atılan bütün işlər də Ümummilli liderin adına, onun öndərlik tərcümeyi-halına layiq şəkildə gerçəkləşməlidir.

# Azərbaycanın uğurları fonunda

# İRANIN QORXUSU

**Çoxdandır ki, erməni dəyirmanına su tökərək, Azərbaycanın ərazi bütövlüyü barədə sərsəm bəyanatları ilə diqqəti çəlb edən qonşu dövlət olan İran artıq həddini aşdı və həmin ölkədə Azərbaycan səfirliyinə olan hücumla, terror aktı ilə ölkəmizə münasibətdə özünü guya döst adlandıran ölkənin hansı mövqedə olduğu faş olundu və hətta bu dövlət beynəlxalq müstəvidə belə rüsvay oldu. Həm də ona görə rüsvay oldu ki, İran öz qorxusunu da bəlli etdi və bütün dünya gördü ki, Azərbaycanın uğurları, istənilən müstəvidə ölkəmizin əldə etdiyi qələbələr İranı bərk qorxuya salıb.**

Təbii ki, bu rüsvayçılıqdan xilas olmaq üçün rəsmi Tehran səfirliyə edilən həmin o hücum, terror aktı ilə bağlı müəyyən uydurmalar səsləndirir, amma reallıq göz önündədir və bunların yalan, həqiqətə uyğun olmadığı bəllidir. Mühafizə xidmətinin terrorçuya qarşı "dost" münasibəti məsələnin kökü barədə çox söz deyir. Əlində avtomat olan, silahlanmış birinə mühafizə xidmətinin saymazyana münasibət göstərməsi və onun bu şəkildə, bu vəziyyətdə səfirliyə yaxınlaşmasını belə adi qarşılaması heç də normal deyil və bir sıra gizli məqamlardan xəbər verir. Terrorçu qapıya yaxınlaşır, əvvəlcə hansısa küt alətlə zərbələr endirir, sonra silaha əl atır və bütün bunlar müəyyən zaman fasiləsində, özü də mühafizənin müdaxilə etməsi üçün kifatət edəcək zaman fasiləsində baş verir. Amma mühafizənin belə bir addım atdığının şahidi olan olmur. Əksinə, tam rahat, heç bir maneə olmadan terrorçu qapını sındırmaqla, səfirlik binasına daxil olmaqla məşğul olur və maneənin olmayacağına belə əvvəlcədən əminliyi də hiss olunur.









Hadisə zamanı terrorçunun gəldiyi avtomobildə iki uşaq olması barədə fikirlərin ortaya atılması səbəbsiz deyildi. Məqsəd hadisəyə, ediləcək hücuma, terrora don geyindirmək olub və bu istiqamətində hazırlıqlar da əvvəlcədən düşünülüb. Məsələ burasındadır ki, kadrlardan da göründüyü kimi, terrorçunun gəldiyi avtomobildə uşaqlar olmayıb və bu barədə ortaya atılanlar da yalan və azdırıcı imiş. Çox maraqlı bir məqam diqqəti çəlb etməyə bilməz, avtomobildə uşaq yox idisə, bu barədə xəbər yaymaq İranın nəyinə lazım idi? Əgər İran tərəfi məsələnin nə demək olduğunu anlamayıbsa, niyə qondarma versiyanı dövriyyəyə buraxmaq üçün əldən-ayaqdan gedir? Məlum hadisə ilə bağlı belə faktlar yetərincədir və hər biri də İranın bu məsələni əvvəldən bildiyini və hətta buna hazırlaşdığını təsdiq edir.





Hadisədən çox az bir zaman keçəndən sonra saxlanılan terrorçu törətdiyi hadisə barədə çox rahat və ardıcıllıqla ifadə verir. Belə bu şəkildə ardıcıl ifadələri uzun müddət hazırlaşan, özü də hansısa sıradan bir hadisədə saxlanılan bir insan verə bilərdi, terror aktını törədən və saxlanılan biri yox. Həmin terror hadisəsindən qısa bir müddət sonra İranın jurnalistlərinin də hadisə yerində terrorçuya məhz İranın özünə lazım olan məqamları əks etdirəcək suallar verməsi də təsadüfi deyildi. Heç İran televiziyaları arasında məhz Azərbaycan əleyhinə mövqeyi ilə seçilən Sabah televiziyasının da bu yerdə dərhal peyda olması belə təsadüfi sayıla bilməz. Bu faktlar təsdiq edir ki, həmin hadisə, daha doğrusu terror aktı birbaşa olaraq İran hakimiyyəti tərəfindən hazırlanmışdı, özü də xeyli müddət öncədən. Bəli, İran bunu hansısa səbəblərlə, nə ilə isə əlaqələndirmək istəyir və burada, xalqlar arasında münasibətləri pozmağa çalışanların niyyətlərindən tutmuş ailə münaqişəsi variantına qədər əl atılır, amma istənilən halda İran dövləti bu məsələdə cavabdehlik daşıyır, hansı ki, bunu yaxşı bildiyi üçün əl-ayağa düşüb. Qorxu hissi burada dərhal hiss olunur və bunun səbəbləri də bəllidir. Təkcə cavabdehlik deyil, eyni zamanda İran artıq hadisələri idarə edəcək rıçaqları əldən verdiyinin də fərqindədir və buna görə də sıxıntıları başadüşüləndir.

Dünyanın bir neçə ölkəsində terror aktı törədən, terroru dövlət siyasətinin vacib elementi kimi qəbul edən İran və Ermənistan arasında oxşarlıqlar çoxdur, hansı ki, onları bir-birini qardaş adlandırmağa sövq edib. Eyni ilə ermənilər kimi, farslar da bir zamanlar böyük, güclü dövlətlərin təsirlərinə, hökmranlıqlarına davam gətirə bilməyib süquta uğrayıblar. Sonuncu minillikdə bu ərazilərdə hansısa fars, eləcə də erməni dövləti olmayıb və bu gün coğrafi baxımdan İran adlandırılan ərazilərdə Atabəylər, Ağqoyunlular, Qaraqoyunlular, Səfəvilər, Afşarlar kimi bizim əcdadlarımıza məxsus dövlətlər olub. Bir-iki əsr bundan əvvəllə qədər indiki İran dövləti olmayıb. Eyni tale, eyni hal Ermənistana da aiddir. Ötən əsrin əvvəllərinə qədər Ermənistan deyilən bir dövlət barədə də söhbət gedə bilməz və bu iki dövlət həmin dövrdə süni şəkildə yaradılıb, özü də məhz bizə, azərbaycanlılara məxsus olan tarixi ərazilərdə yaradılıb. Məqsəd də geosiyasi müstəvidə türk faktoruna qarşı addım olub. Bir tərəfdə Türkiyə, digər tərəfdə də Azərbaycan kimi dövlətlər olduğu halda bu iki dövlət, yəni İran və Ermənistan süni şəkildə kimlərinsə maraqları naminə yaradılıb. Daha dəqiq desək, həmin dövrdə geosiyasi müstəvidə güc, söz sahibi olan Rusiya və Böyük Britaniyanın maraqlarına xidmət edən siyasət olduğu bəllidir.

Əhalisinin demək olar ki, yarısı azərbaycanlılar olan İranın bu gün azərbaycanlılara, elə Azərbaycana qarşı aqressiyası, eləcə də Ermənistanın özünün ölkəmizə qarşı əks mövqeyi bu mənada səbəbsiz deyil, qorxunun əlamətidir. Hər iki qonşu dövlət, yəni İran və Ermənistan qorxur ki, azərbaycanlılar öz haqlarını tələb etdikləri halda bu, dünya birliyi tərəfindən dəstəklənərsə, o zaman onlar yenə də əvvəllər olduğu kimi, dövlətçilikdən məhrum olarlar. Bəli, Ermənistan adlanan İrəvan ərazisinin Azərbaycan ərazisi olduğu, iyirminci əsrin əvvəllərində ermənilərə verildiyi, eləcə də İran ərazilərinin bizə məxsus olan qədim dövlətlərin əraziləri olduğu və İran dövlətinin süni şəkildə yaradıldığı fonunda hər iki ölkənin qorxusu, azərbaycanlıların öz ərazilərinə sahib çıxmaq imkanlarının böyük olduğu qorxusu ilə qorxuya düşdüyü gün kimi aydındır. İndi hər iki qonşu dövlət tərəfindən törədilən terror hadisələrinin, təxribatların da bəlli bir ssenarisi var və yenə də hansısa çirkin niyyətlərə xidmət etdiyi zərrə qədər şübhə doğura bilməz. Eyni zamanda, Ermənistanla İranın bir mövqedən çıxış etməsi də, bir-birini qardaş adlandırması da, bizə azərbaycanlılara, Azərbaycan dövlətinə qarşı əks mövqe sərgiləməsi də bu aspektdə anlaşılandır və açıq şəkildə görünür ki, bu, hər iki qonşu ölkənin ölkəmizə, vətəndaşlarımıza qarşı etdikləri qorxunun təzahürüdür. Bu yanaşmada təəccüblü heç nə yoxdur və Azərbaycanın öz ərazi bütövlüyü, suverenliyi uğrunda apardığı uğurlu siyasət İranın da, Ermənistanın da yuxusunu ərşə çəkib. Ermənistanın açıq şəkildə düşmənçilik mövqeyi ilə yanaşı, İran da Azərbaycanı dost ölkə hesab etmir, baxmayaraq ki, bunun əksini bəyan edir.

Bu zamana qədər, yəni Sovet imperiyasının, ardınca da həmin imperiyanın varisi sayılan Rusiyanın təsirləri güclü olduğu zamana qədər İran da, Ermənistan da hansısa mənada özünü bir çərçivədə aparmaq məcburiyyətində idisə, indi məlum Ukrayna-Rusiya müharibəsi və bununla bağlı az qala bütün dünya tərəfindən aldığı sanksiyalar fonunda Moskvanın təsir imkanları və gücü azaldığı zaman İran da, Ermənistan da özünü ifadə etmək imkanları əldə edib. Eləcə də Azərbaycanın, qardaş ölkə olan Türkiyənin geosiyasi müstəvidə söz sahibinə çevrilməsi, regionda lider dövlətlər olmaları, bunu da bütün dünyanın qəbul etməsi hər iki qonşu ölkə hakimiyyətinin kürkünə birə salıb. Ermənistanın düşmənçilik mövqeyi açıq şəkildə olub, amma özünü yalandan dost ölkə kimi qələmə verən İranın bu mənada mövqeyini heç olmasa bundan sonra nəzərə almaq lazım gəlir. Bir sözlə, təkcə Ermənistan deyil, İranın da ölkəmizə qarşı aqressiv, qeyri-dost mövqeyi bundan sonra da yaddan çıxmamalıdır və ehtiyat əldən verilməməlidir.

Türkiyə-Azərbaycan tandeminə görə İranın narahatlıq keçirdiyi qətiyyən təkzib edilə bilməz. Azərbaycanın 44 günlük müharibə zamanı əldə etdiyi uğurları da, bu müharibənin məntiqi nəticəsi olan Zəfərimizi də İranın həzm etmədiyi elə müharibə dönəmində də özünü büruzə verirdi, müharibə bitdikdən sonra da bu özünü büruzə verməkdədir. Rəsmi Tehranın Ermənistana dəstək nümayiş etdirməsi də, hətta post-mühribə dönəmində belə molla rejiminin sərhədlər barədə məlum sərsəm bəyanatları da təsdiq edir ki, İranı məhz Türkiyə-Azərbaycan tandemi bərk qıcıqlandırır. Xüsusilə nəzərə almaq lazımdır ki, İran bir tərəfdən Türkiyə, digər tərəfdən Azərbaycan, hətta o biri tərəfdən də Pakistanla sərhəddir və bu coğrafi yerləşmədə olan İran bu gün Türkiyə ilə yanaşı Pakistanın da Azərbaycanla dost münasibətlərinə görə narahatdır. Doğrudur, Pakistan hələ ki, Azərbaycanla məhz Türkiyə qədər yaxın deyil, amma rəsmi Tehran bilir ki, istər siyasi, istərsə də hərbi mənada Pakistan Azərbaycan üçün müttəfiq hesab olunur. Üstəlik, bu müttəfiq münasibətləri fonunda Azərbaycanın söz sahibinə çevrilməsi, xüsusən də regionda lider dövlət olaraq qəbul edilməsi bu coğrafi yerləşmədə olan İran üçün qorxu yaradıb. Bir sözlə, Azərbaycanın uğurları fonunda İranın qorxusu anlaşılandır və bu ölkənin hələ bundan sonra da aqressiyası gözləniləndir.

***İnam Hacıyev***

ANALİTİKA+PUBLİSİSTİKA

# Qorxulu Tehran

**Xeyr, Mürtəza Müşfiq Kazımının ötən əsrin 20-ci illərində İranın ağır rejimi, siyasi-iqtisadi vəziyyəti, bu mühitdə qadınların cəmiyyətdəki rolu, saraydaxili intriqalar, harınlamış şahzadələrin eyş-işrət dolu həyatı, ədalətsizlikləri, heç bir hüququ olmayan qadınların bazarda sadəcə heyvan kimi satılması fonunda qələmə aqldığı Fərrux və Mehrin adlı iki gəncin bir-birinə olan sevgisi, bu sevgi uğrunda mübarizəsindən bəhs edən ”Qorxulu Tehran”dan bəhs etmirəm. Həmin illərdən bizi ayıran ötən 100 ildə, bəli, o ”Qorxulu Tehran” da heç nəyin dəyişmədiyindən, əsərdə sadalananların eynilə qaldığından bəhs etmək istəyirəm. Və bütün bunların fonunda isə ötən günlərdə Tehranda Azərbaycan səfirliyinə edilən silahlı basqından, səfirlik rəsmisi, təhlükəsizlik xidmətinin rəisi baş leytenant Orxan Əsgərovun vəhşicəsinə qətlə yetirilməsindən, yaralananlarımızdan danışmaq istəyirəm. Bütün bunlar yeni bir ”Qorxulu Tehran”ın mövzusu deyilmi?..**

Ötən iki gündə ”Qorxulu Tehran”ı yenidən bir də vərəqlədim. Gözlərim qarşısında bugünkü İran, onu baş şəhəri Tehran canlandı. Əsər sanki bu gün yazılıbmış. Sırağa günün, dünənin, bu günün hadisələrindən ibarətdir. Düşünürəm, görəsən aradan 100 il-bir əsr keçməsinə rəğmən dəyişən nə olub? Yəni bu ölkədə heç nə dəyişməyibmi? Burada hər şey sanki 100 illik buzlağa çevrilib, sükütun lallığına uğrayıb. Birdən günəş doğub, əridib o buzlaqları, buzun altından isə 100 il əvvəl boylanmışdır: necə donub qalmışdısa, o cür, necə vardısa, o cür, necə idisə, o cür.

”Qorxulu Tehran”nın giriş hissəsi diqqətimi həmişəkitək daha çox cəlb etdi və aşağıdakı sətirləri göz yaşları ilə oxumalı oldum. Bu göz yaşlarının səbəbi barədə bir qədər sonra...

”Günəş qarşıdakı təpənin dalından süzüb get-gedə enir, hava qaralırdı. Məhin tutqun olduğu üçün bu tutqunluğun üstünə bir də qaranlıq çökməsini istəməyirdi. Ömrünün axır gecəsi olduğunu hiss edirmiş kimi süzgün baxışlarla günəşi süzərək sanki onun eləcə durmasını və qürub etməməsini diləyir, rica edirdi.

Lakin təbiət onun ricasını qəbul edərdimi? Xeyr! O öz hökmünü icra etməkdə idi...

Qar getdikcə şiddətini artırırdı. Dustaqların paltarları islanmış, su bədənlərinə keçməyə başlamışdı. Onların əlləri bir-birinə bağlandığı üçün üst-başlarına düşən qarı silib təmizləməyə imkanları yox idi. Hər biri min zəhmətlə özünü silkələyir, lakin bu silkələmə çox vaxt onların zərəri ilə nəticələnirdi. Qar boyunlarından kürəklərinə tökülüb daha da onlara əziyyət verirdi

Bəli, bu sətirləri göz yaşları ilə oxudum. Ona görə ki, 100 il sonrakı qorxulu Tehranda baş verənlərə o qədər oxşayırdı ki   Oxuduqca beynimdə Orxanın Şəhid olduğu səhərin sübhü canlanır, səhərin açılması, hadisənin başlanması, gedişi gözlərim qarşısından kino lenti kimi keçirdi. Əlimə qələm alıb, o ”Qorxulu Tehran”dan bu qorxulu Tehrana gəldim və Orxanın şəhid olduğu günü belə təsvir etməyə başladım: Sübh çağı idi. Ötən gecə Tehrana yeni bir səhər ərməğan etməkdəydi   Qışın soyuğunun, şaxtasının, sazağının dan yerindən boylanma vaxtını onsuz da gecikdirdiyi günəş hər gün öz zərrin şüaları ilə sanki qışla mübarizə aparırmış kimi boylanmağa, ona hökmranlıq edən qışa öz hökmünü göstərməyə çalışırdısa, lakin bu sübh mübarizəsindən əl götürmüşdü. Elə bil bu səhərin Tehran üçün qorxu ilə açılacağından ehtiyat edib yeni bir günün işıqlanmasını, yeni bir səhərin açılmasını əngəlləyirdi.

Tehranda yerləşən Azərbaycan səfirliyinin binası sübhün bu yarıqaranlıq vaxtında, küçələrdə sükutun hökm sürdüyü anda birazdan burada nələrin yaşanacağından xəbərsizcə qürurla dayanmaqdaydı. Qarşısındakı



üçrəngli bayrağımız ətrafda bu qürura yoldaşlıq edən yeganə varlıq idi. Həmişəki səfirlik, ölkəmizi təmsil edən həmişəki səfirlik binası. Həmişəki qapılar, pəncərələr, həmişəki işıqlar, həmişəki küçə, küçədəki ağaclar və binadan süzülən işıq seli altında ağacların yarıqaranlıq və yarıişıqlı görüntüsü

Bir qədər sonra günəş dan yerindən istəsə də, istəməsə də boylanacaq. Yeni bir səhəri Tehrana bəxş edəcək. Yeni səhər bax həmişəki bu səfirlik binasında nələrin şahidi olacaqdı, bundan heç kimin xəbəri yoxdu. Yox, yox, xəbəri olan bir qrup insan vardı. Onlar bax bu açılan səhərdən öncəki gecədə yatmamışlar, səfirlik binasının ətrafında sabahkı qətliam üçün planlar qurmuşlar. Haradan girəcəklər, binaya necə daxil olacaqlar, orada kiminlə qarşılaşacaqlar, qarşılaşanda hansı hərəkətləri edəcəklər

Bəli, bu səhərin o müdhiş gecəsi qanlı bir səhərə hamilə idi. Saatlar sonar o gecə o səhəri dünyaya gətirəcəkdi və gətirməklə də qədim Azərbaycan torpağında illərin ayırdığı və şimallı-cənublu etdiyi azərbaycanlıların bir nümayəndəsi böyük bir faciənin qurbanı olacaqdı.

***

Bu xalq-Azərbaycan xalqı nə qurbanlar, nə faciələr, nə soyqırımları, nə deportasiyalar görmüşdür, İlahi! Bax, bu Tehranda, bu qədim Azərbaycan şəhərində nə üçün bizim səfirlik olmalıydı axı? Məgər bura Azərbaycan deyilmi? Bu, zamanın hökmüdürmü? Xeyr, zamanın hökumü deyil. Qəlbi vəhşətlə, dəhşətlə, hökmranlıq eşqi ilə dolu olan, gözü ac, könlü torpaq ”sevdalı” insan övladının tarixin səhifələrinə yazdığı adıdır. İnsanların nələrə qadir olduğunu, dünyanın bütün yaranmışlarından fərqli, acgöz, nadan olduğunu sərgiləyən amillərdir. İnsanlığa qara ləkədir.

Bu qara ləkə əsrlərdir ki, bizi o taylı-bu taylı etməyibmi? Qədim, ucsuz-bucaqsız Azərbaycan torpaqları iki imperialist arasında o tərəfə-bu tərəfə dartılıb ikiyə ayrılmayıbmı? Böyük bir qismi o tayda, kiçik bir qismi bu tayda qalmayıbmı Vətənimin? Tək torpağımı dartıb, çəkib, didib-didişdirib bölüblər? Xeyr, burada yaşayan milyonlarla insanın isə dartmaqla, çəkməklə qəlblərini bölüblər. Yarısı o tayda, yarısı bu tayda qalıb. O tayda baba qalıb, bu tayda nəvə. Bir ürəyin yarısı o tayda, yarısı bu tayda. Ata-ana o tayda qalıb, oğul-qız bu tayda. Uzun illər keçib, ata oğlunu görəndə tanımayıb. Ana balasını görəndə onu bağrına basmaq, qoxulamaq, ətrini ciyərlərinə çəkmək əvəzinə onunla yad kimi görüşüb.

1990-cı illərin sərhəd hadisələrində Arazın o tayına yığışanlarla bu tayına yığışanlar bir-birinin adlarını ucadan söyləməklə nənəbaba, əmiqızı, əmioğlu, xalaqızı, dayıoğlu olduqlarını öyrənməklə o tayda da, bu tayda da sevinc tonqalları yandırırdılar, bilirsinizmi? Görənlər görüb, qoy görməyən gənclərimiz, yeniyetmələrimiz də bilsinlər ki, belə dəhşətli-üräyin dözə bilmədiyi, Arazın sularını elə oradaca göz yaşına çevirib elə Araza axıdan insanların acı mənzərələri ilə qarşılaşmışıq, hadisələr yaşamışıq

Azərbaycan   Sən nə qədər ulusan, nə qədər möhtəşəmsən. Sənin üçün ölmək, şəhid olmaq, yaralanıb qazi olmaq, bir ömrü bir qolun, bir ayağın yoxluğu ilə yaşamaq da xoşbəxtlikdir. Düşünəndə ki, sən bizdən yana budur, əsrlərdir ki, bölünmüsən, amma buna dözmüsən, üzərində nə qanlar-qadalar görmüsən, nə qanları ciyərinə çəkmisən, bəzən bitirdiyin-yetirdiyin suyla yox, qanla olub, biz kimik ki, sənin bu böyüklüyün, əyilməzliyin qarşısında əyilək. Əyilmərik də. Çünki biz sənə bənzəyirik. Sənintək qürurla dayanmağı bacarırıq. Başqa cür ola da bilməz ki   Axı biz sənin övladlarınıq

***

Orxan kimi   Qorxulu Tehranın o səhərinin qurbanı olan Orxan kimi   Orxan çox yox, ikicə il öncəki minlərimizi andırdı mənə yenə də. Qarabağda şəhid olan minlərimizi. Namus, qeyrət savaşına çıxan, torpaq, ərazi bütövlüyümüz uğrunda canını qurban verən, Vətən üçün gözü yolda qalan həyat yoldaşından, övladından, hələ dünyaya gəlməmiş balasından, sevdiyindən, atasından-anasından, ümumilikdə həyatından keçən minlərlə oğullarımızı xatırlatdı. O minlər Qarabağı geri aldılar. Axı torpaq bizdə namusdur, qeyrətdir, iffətdir. Onlar bizim 30 il işğal altında qalan, hər dəfə söhbət açılanda başımızı aşağı dikdiyimiz torpaqlarımızı aldılar, namusumuzu, qeyrətimizi, iffətimizi xilas etdilər. Ali Baş Komandanımız cənab İlham Əliyevin ötən 20 ilədək dövrdə dəmir yumruğu ətrafında birləşən xalq onu düşmənin başına endirə bildi.

Elə iki ildir, nə hadisə baş verirsə, Qarabağ Zəfəri ilə bağlı deyilmi? Səfirliklərimizə hücumlar, terror hadisələri, minalanmış torpaqlarımızda soydaşlarımızın həyatlarını itirmələri, ekologiyamıza vurulan ziyanlar və sair kimi bir-birinin ardınca törədilən hadisələr, bəli, Qarabağ Zəfərini həzm edə bilməyənlərin törətdikləridir.

Orxan Əsgərov da Vətən yolunda şəhid oldu. Ölkəmizin səfirliyi onun bir parçası deməkdir. Səfirliklərin təhlükəsizliyi yerləşdiyi ölkənin yerinə yetirməli öhdəliyi olsa da, amma bunun tamamilə əksi oldu həmin səhər. Əlisilahlı terrorçu əvvəlcədən hazırlanmış plan üzrə səfirliyimizə necə soxula bildi? Axı səfirlik binasının ətrafı qorunmalıdır? Bu qədər qoruyucular içərisindən terrorçu binaya necə daxil oldu? Artıq bunun izaha ehtiyacı yoxdur və məlumdur, həm də gün kimi məlumdur ki, terror hadisəsi əvvəlcədən, həm də bayırda dayananlarla birlikdə planlaşdırılmışdır ki, həmin terrorçi içəriyə çox asanlıqla girə bilmişdir.

Təsəvvür edəndə, adam dəhşətə gəlir: iş otağında oturmusan, işinlə məşğulsan, birdən qapı açılır, əlisilahlı terrorist içəri daxil olur və sən onunla mübarizə aparmalı olursan. Orxan kimi. Orxan bir azərbaycanlı kişisinə məxsus qeyrəti, ərliyi qoydu ortaya həmin gün. Səfirlik əməkdaşları üçün düşmən qarşısına tək çıxdı. Onunla əlbəyaxa, aslan kimi döyüşdü. Bütün səfirlik əməkdaşlarını xilas etdi. Yaralanan yoldaşları ilə birlikdə ölümün gözünə dik baxdılar, məğlub olmadılar. Qədim Azərbaycan torpağına, azərbaycançılığa məxsus qeyrət nümayiş etdirdilər. Azərbaycan dövləti üçün sinələrini ölümə verdilər.

Orxan qorxulu Tehranın yeni açılan bir səhərində beləcə şəhid oldu. Qəhrəmancasına şəhid oldu. Vətəninin o başından bu başına gətirildi, torpağa tapşırıldı. Bu dünyadan bir Vətən fədaisi, qəhrəmanı, igidi kimi xatirələrə köçdü. Minlərlə şəhidlərimizdən biri oldu, heç vaxt yaddaşlardan silinməyən, hər zaman qürur yerimiz olan şəhidlərimizdən birinə

Qorxulu Tehran isə qədim Azərbaycan torpağında bir şəhər olaraq qalmaqdadır. Nə qədər ki, orada molla rejimi hökm sürür nə ictimai-siyasi vəziyyətdə, nə insanlığa qarşı hörmətdə və sayğıda, nə qadın, nə kişi, nə uşaq hüquqlarında əsla bir dəyişiklik baş verməyəcək. Bu dəyişikliyi isə o tayda yaşayan soydaşlarımız edə bilərlər. Necə ki, ötən ilin sentyabr ayından gənc Mehsanın edam olunması ilə mübarizəyə qaxıblar. Artıq o mübarizə milli azdlıq hərəkatına çevrilib. Bəli, əziz soydaşlarımız, sizin əlinizdədir, o qorxunu Tehranın üzərindən götürmək. Xilas edin bu şəhəri. İzn verməyin bu şəhərdə daha böyük qorxular, faciələr yaşansın.

Əziz soydaşlarımız, bir saniyə də durmayın. Xilas edin Tehranı. Tehranın xilası bütün İranın, İrandakı 30 milyondan artıq azərbaycanlının xilasıdır. Qoy Orxanın qəhrəmanlığı bu xilaskarlıq hərəkatının başlanğıcı olsun. Xilas edin Tehranı. Xilas edin ki, bu azadlıq paytaxtdan bütün əyalətlərə yayılsın. Tehran, qorxulu deyil, qorxusuz-gözəl olsun. Çünki cənublu-şimallı Azərbaycan gözəlliyi, azadlığı, bir də bütövlüyü haqq edir.

***Mətanət Məmmədova***

# “Bugünkü gündə bütün həmyerlilərimiz Qərbi Azərbaycanlı olmalıdır”

## Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri, millət vəkili Məlahət İbrahimqızının SİA-ya müsahibəsini təqdim edirik:

***- Bildiyimiz üzrə siz də Qərbi Azərbaycan diyarındansınız. Qərbi Azərbaycanlı olmaq sizin üçün nə ifadə edir?***

- Öncə bildirim ki, mən də tarixi torpaqlarımız, Dədə Qorqud yurdu, əcdadımızın məskəni və vətəni olan Qərbi Azərbaycandanam. Amma bu o demək deyil ki, kim orada doğulursa, kimin əcdadı o torpağa bağlıdırsa, onu Qərbi Azərbaycanlı adlandırmaq olar. Hesab edirəm ki, əgər Qərbi Azərbaycanla bağlı problemimiz, ağrımız varsa bugünkü gündə istər ölkəmizdə, istərsə də dünyanın başqa bir yerində yaşayan bütün həmyerlilərimiz Qərbi Azərbaycanlı olmalıdır. Necə ki biz ötən 30 ildə harada doğulub yaşamasından asılı olmayaraq hər birimiz Qarabağlı olduq, ürəyimiz qubar bağladı, bu məsələdə də eyni şəkildə bir yumruq olmalıyıq. İnsanın harası ağrıyırsa, orasını can bilir.






Qərbi Azərbaycan bütöv Azərbaycanımızın bir hissəsidir. Deməli, bu gün Qərbi Azərbaycan adlanan tarixi torpaqlarımızda xalqımızın itirilmiş hüquqlarının, ədalətsizliyin bərpası üçün hər kəs birləşməli və əlindən gələni etməlidir. Hansı formada olursa-olsun, bu məsələdə hər kəs mübarizə aparmalıdır.

***- Sizcə, Qərbi Azərbaycanlı olmaq üçün hansı meyarlar olmalıdır?***

- Hesab edirəm ki, Qərbi Azərbaycanlı olmaq əslində Vətənini sevmək deməkdir. Qərbi Azərbaycanı sevmək elə Azərbaycan dövlətini, xalqını sevməkdir. Qərbi Azərbaycanlı olmaq azərbaycançılığını qorumaq, öz soy-kökünə, tarixinə sahib çıxmaq deməkdir. Eyni zamanda, Qərbi Azərbaycanlı olmaq əcdadına sədaqətli olmaq, onun məruz qaldığı haqsızlıqlara qarşı səsini çıxarmaqdır.

***- Qərbi Azərbaycanla bağlı həqiqətlərin beynəlxalq miqyasda təbliği üçün hansı işlər görülür?***

- Qərbi Azərbaycanla bağlı həqiqətlərin beynəlxalq miqyasda təbliği üçün çox işlər görülür. Bir tərəfdən Qərbi Azərbaycanda, yəni hazırkı qondarma Ermənistan dövlətində Azərbaycan xalqının əsrlər boyu mövcudluğunu sübut edən materiallar, beynəlxalq hüquqa əsaslanan tarixi faktlar toplanır və müxtəlif dillərə tərcümə olunur ki, dünya ictimaiyyətinə çatdıra bilək. Doğrudur, sübut etməyə ehtiyac yoxdur, amma beynəlxalq təşkilatlar bugünkü Ermənistan ərazisində Azərbaycan xalqının tarixən mövcud olduğunu bilməlidirlər. Ona görə də biz bunu sübut etmək üçün yazılı və şifahi tarix, ədəbiyyat, toponimlər və s. toplayacaq, tərcümə edəcək və ayrı-ayrı beynəlxalq təşkilatlara göndərəcəyik. Bununla yanaşı son 200 ildə Cənubi Qafqazda erməni fitnəkarlarının yalanlarını ortaya çıxarmaq üçün müxtəlif materiallar hazırlanacaq. Hazırda bununla bağlı çoxlu kitablar yazılır, xəritələr hazırlanır. Biz sübut edəcəyik ki, Cənubi Qafqazda tarixən heç vaxt ermənilər yaşamayıb. Hətta ermənilər sovet dövründə Qarabağa gəlişlərinin 150 illiyini qeyd ediblər. Yəni, bu xalq Cənubi Qafqaza təxminən 200 ilə yaxın müddətdə gəlib. Biz həm o torpaqlarda tarix boyu Azərbaycan xalqının yaşadığını, həm də ermənilər ora sonradan gəlmə xalq olduğunu sübut edən sənədlər hazırlamalıyıq”.

***- Qərbi Azərbaycan adət-ənənələri, tarixi, dini adətləri və s. kimi amillərlə bağlı hansı işlərin görülməsinə ehtiyac var?***

- Sözsüz ki, bir xalqın ərazidə var oluşunu sübut edən ən vacib faktlardan biri də onun tarixi binaları, dini ibadət yerləri, məzarlıqlarıdır. Çox təəsüf ki, bizim məzarlıqlar, dini ibadət yerlərimizin əksəriyyəti vandalcasına dağıdılıb. Erməni vandalları tarixi saxtalaşdırmaq üçün hər cür çirkli əmələ əl atıblar. Qərbi Azərbaycanda qeyri-maddi mədəni irsi, kulinariyadan tutmuş milli geyimlərə qədər, nə qədər sənət növləri varsa toplamalı və orada Azərbaycan xalqının tarixi mövcudluğunu sübut edən fakt kimi həm Azərbaycan, həm də dünya ictimaiyyətinə çatdırmalıyıq. Qərbi Azərbaycan İcması yarandıqdan sonra Azərbaycan Milli Elmlər Akademiyasında bir neçə şöbələr, müvafiq qurumlar yaradılıb. Hesab edirəm ki, bundan sonra da bu istiqamətdə daha çox işlər görüləcəkdir. Qərbi Azərbaycanda yaşamış, oranın mədəniyyətinə, elminə böyük töhfələr vermiş Qərbi Azərbaycanlı qadınların tanınması üçün uğurlu addımlar atılacaqdır.

***- Beynəlxalq təşkilatların Qərbi Azərbaycan məsələsinə münasibətini necə dəyərləndirmək olar?***

- Biz 30 illik Qarabağ konfliktinin həll olunmasında çox zəngin bir təcrübə topladıq. Beynəlxalq təşkilatların bəzi hallarda riyakarlığının, bir çox hallarda susqunluğunun şahidi olduq. Onlar problemi görmürlər, heç görmək, eşitmək də istəmirlər. Amma Azərbaycan dövlətinin gücü, xalqın birliyi və həmrəyliyi, möhtərəm Prezidentimizin qətiyyəti və məğlubedilməzliyi, milli ordumuzun gücü ilə biz həm Qarabağ torpaqlarımızı işğaldan azad etdik, həm də beynəlxalq təşkilatlarla bağlı kifayət qədər təcrübə qazandıq. Görünən odur ki, beynəlxalq təşkilatlar yenə də ikili standart tətbiq etməyə çalışacaqlar, bəzi hallarda isə riyakarlıq göstərəcək, səssiz qalacaqlar. Bunun bizə heç bir aidiyyatı yoxdur. Biz onları bu həqiqətin, tarixi haqsızlığın üzərindən keçməməyə məcbur edəcəyik. Nə qərar verəcəklər deyə bilmərəm, amma ən azından biz bu həqiqətləri onlara çatdıra biləcəyik. Beynəlxalq təşkilatların laqeydliyinə fikir verməyərək öz işimizi görməliyik. Gördüyümüz iş nəticəsində beynəlxalq təşkilatlar Qərbi Azərbaycanlıların hekayəsini dinləyəcək, faciəsini dərk edəcək. Nəticə etibarilə biz Qərbi Azərbaycanlılar olaraq indiki Ermənistan ərazisində itirilmiş hüquqlarımızı bərpa edəcəyik.

***- Birləşmiş Millətlər Təşkilatı (BMT) katibliyinin Qərbi Azərbaycan İcmasının beynəlxalq ictimaiyyətə müraciətini rəsmi sənəd kimi yayımlaması nəyin göstəricisidir?***

- Bildiyimiz kimi, bu gün mətbuatda çox sevindirici bir xəbər verildi. Belə ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi Qərbi Azərbaycan İcmasının beynəlxalq ictimaiyyətə müraciətini BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədi BMT-nin rəsmi sənədi olaraq bütün rəsmi dillərində ingilis, fransız, rus, Çin, ərəb və ispan olmaqla yaymışdır. Hesab edirəm ki, bu Azərbaycan xalqının, Azərbaycan dövlətinin uğurudur. Bu uğur möhtərəm Prezidentimizin müdrik diplomatiyasının və onun beynəlxalq aləmdə olan yüksək nüfuzunun nəticəsidir.

***- Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının fəaliyyətində qayıdışla bağlı hansı planlar var? Azərbaycanlı xanımlarımız, gənc qızlarımız bu məsələdə necə rol oynaya bilər?***

- Bildiyiniz kimi, bu yaxınlarda Qərbi Azərbaycan İcmasının konsepsiyası qəbul olundu. Bütün dillərə tərcümə olunaraq müxtəlif beynəlxalq təşkilatlara paylandı. Göründüyü üzrə biz hüquqlarımızın bərpasını sülh yolu ilə təmin etməyə çalışırıq. Biz neçə onilliklər boyu ermənilər də daxil olmaqla müxtəlif xalqlarla, milli azlıqlarla bir yerdə yaşamışıq. Azərbaycan xalqı etnik bir cəmiyyətdə yaşamağı vərdiş edib. Azərbaycan polietnik olmaqla dünyanın nadir ölkələrindəndir. Ermənilər vaxtilə burada yaşayanda Azərbaycan tərəfindən heç vaxt fitnə, xəyanət olmayıb. Hər zaman aradakı münaqişəni fitnəkar Ermənistan yaradıb. Bütün bunlara baxmayaraq Azərbaycan xalqı öz haqlı davasında Qarabağı işğaldan azad etdi. Bugünkü gündə orada möhtəşəm quruculuq işləri həyata keçirilir. Azərbaycan dünyada tolerantlığın mərkəzi kimi tanınır. Ona görə də Azərbaycan xalqı yenə də ermənilərlə birgə yaşaya bilər. Çünki biz məsələni sülh yolu ilə həll etmək istəyirik.

Qərbi Azərbaycan İcmasının müxtəlif strukturları olsa da, biz bir vahid komanda kimi fəaliyyət göstərəcəyik. Təbii ki, qadınlarla bağlı da fəaliyyət planımız var. Yaxın vaxtlarda yekunlaşacaq. Qərbi Azərbaycan İcmasının Qadınlar Şurası Cənubi Qafqazda yaşayan bütün xalqların qadınlarına müraciət edəcək. Eyni zamanda, bütün dünyaya, həmçinin erməni analarına, bacılarına müraciət edəcəyik ki, onlar da bölgədə barışın, sülhün qorunması üçün öz töhfələrini versinlər. Hazırda Birləşmiş Millətlər Təşkilatının 13 və 25-ci qətnaməsində də qeyd olunub ki, qadınların sülh quruculuq prosesində diplomatik məsələlərdə, konsensusun qurulmasında, müharibə dövrü bərpa quruculuğunda təmsilçiliyi yüksək dəyərləndirilir. Ona görə hesab edirəm ki, Qadınlar Şurasının çətiri altında qadınların bu istiqamətdə görə biləcəyi işlərdən biri də Cənubi Qafqazda sülh və əmin-amanlığa öz töhfəsini verməkdir. Bu da Azərbaycan xalqının tolerantlığını dünyaya çatdıracaqdır.

***- Geriyə qayıtma prosesində qadın hüquqları məsələsinin əhəmiyyəti nədən ibarətdir?***

- Geriyə qayıtma prosesində təbii ki, qadın hüquqlarının bərpası çox önəmlidir. BMT və digər beynəlxalq təşkilatların məcburi deportasiya olunmuş insanların öz doğma yurdlarına qayıtması ilə bağlı bir sıra konvensiya və qətnamələr var. Biz Qadınlar Şurası da beynəlxalq hüquqa istinad edərək geri qayıtma prosesində iştirak edəcəyik. Təki bu məsələ tezliklə həll olunsun.

***- Qadınlar Şurasının 8 Mart Qadınlar Günü ilə bağlı hər hansı bir planı varmı?***

- Bəli. 8 Mart Qadınlar Günü münasibətilə bağlı planlarımız var. Bununla bağlı işlər görülür. Lakin indidən açıqlamağımız düzgün olmaz. Artıq işlərimiz tamamlandıqda sizləri də dəvət edəcəyik.

***Ləman Əlizadə***



# AK Parti və YAP arasında əlaqələr gündən-günə inkişaf edir

## *AK Parti Sədrinin birinci müavini YAP Gənclər Birliyinin nümayəndə heyətini qəbul edib*

**Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini, İstanbul millət vəkili Numan Kurtulmuş qardaş ölkədə səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətini salamlayan Numan Kurtulmuş Ədalət və İnkişaf Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələrin gündən-günə inkişaf etdiyini, qarşılıqlı səfərlərin partiyalar arasında çoxşaxəli münasibətlərin inkişafına mühüm töhfə olduğunu söyləyib. Hər iki partiyanın gəncləri arasında əlaqələrin dinamik xarakter daşıdığını diqqətə çatdıran Numan Kurtulmuş əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini vurğulayıb.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov səmimi qəbula və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirib. O, səfərin hər iki ölkənin hakim partiyalarının gəncləri arasında uğurlu əməkdaşlığın perspektivlərinin müzakirəsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini qeyd edib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

# Türkiyənin xarici işlər nazirinin müavini YAP Gənclər Birliyinin nümayəndə heyətini qəbul edib



Türkiyənin xarici işlər nazirinin müavini Yasin Ekrem qardaş ölkənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) Gənclik Qollarının dəvəti ilə Ankarada səfərdə olan Yeni Azərbaycan Partiyasının (YAP) Gənclər Birliyinin nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycan və Türkiyə arasında dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin dünya üçün nümunə olduğu qeyd edilib. Vurğulanıb ki, iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan arasındakı qardaşlıq münasibətləri Azərbaycan-Türkiyə birliyinin sarsılmazlığını təmin edib. Eyni zamanda, Azərbaycan və Türkiyə gəncləri arasında əlaqələrin inkişafında YAP Gənclər Birliyi və AK Parti Gənclik Qollarının aparıcı rol oynadığı bildirilib.

Qeyd edək ki, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamovun rəhbərlik etdiyi nümayəndə heyətinə Gənclər Birliyinin sədr müavinləri Fəsli Nəbiyev, Sevinc Qasımova və üzvləri Nərmin Qocaman, Kənan Kərimov daxildir.

# Müasir təhsilin inkişafında əsas meyarlar nədir?

***Bu gün bütün dünyada təhsil sistemi təkmilləşir və yeni təhsil modullarının, təhsil nəticələrinə yönəlmiş texnologiyaların axtarışı aparılır. Müasir informasiya texnologiyalarının tətbiqi təhsil sahəsində strateji prioritetlərdir. İnformasiya texnologiyaları müəllimlərə tədris prosesini keyfiyyətcə yeni səviyyəyə çıxarmağa kömək edir. Beynəlxalq təcrübələr təsdiq edir ki, insan kapitalına, xüsusən də təhsilə, uşaqlıqdan yetkinliyə qədər qoyulan investisiyalar gələcəkdə böyük gəlir gətirir.***






SİA mövzu ilə bağlı araşdırma aparıb. Məktəb insan həyatında ən mühüm təhsil müəssisələrindən biridir. Məktəb hər bir şagirdin, kollektivin özünü dərk etməsi üçün şəraitin yaradılması, biliklərin dərindən mənimsənilməsi, uşağın şəxsiyyətinin inkişafı, onun özünütəhsil, özünü təsdiq, özünü ifadə, özünü inkişaf etdirməsində böyük rol oynayır.

Pedaqoji prosesə münasibətdə innovasiya təhsil və tərbiyənin məqsədlərinə, məzmununa, metod və formalarına yeni nəyinsə daxil edilməsi, müəllimlə şagirdin birgə fəaliyyətinin təşkili deməkdir. Əvvəllər müəllim şagirdlər üçün əsas bilik mənbəyi, onların ötürücüsü, tərcüməçisi idi. Bu funksiya bu günə qədər qorunub saxlanılır, lakin o, artıq arxa plana keçir, çünki daha nəhəng informasiya sahələri qarşımızdadır. İndi əməkdaşlıq pedaqogikası ən aktual hala gəlir, burada müəllimə lazımi məlumatların axtarışında məsləhətçi funksiyaları verilir. İnnovativ fəaliyyətin məqsədi ənənəvi sistemlə müqayisədə şagirdin şəxsiyyətinin keyfiyyətcə dəyişməsidir.

Bu, pedaqoji böhranın aradan qaldırılmasını nəzərdə tutan praktikada məlum olmayan didaktik və təhsil proqramlarının peşəkar fəaliyyətə daxil edilməsi sayəsində mümkün olur. İnsanın mənəvi özünü təkmilləşdirməsinə yönəlmiş sosial əhəmiyyətli təcrübə kimi təhsildə innovativ fəaliyyət cəmiyyətdə mövcud olan bütün təcrübə növlərinin transformasiyasını təmin edə bildiyi üçün vacibdir. İnnovativ təlim təkcə öyrənməyə mənfi münasibətdən qaçmaq üçün bir yol deyil. Bu, həm də yeni şərait və situasiyalarda inkişafı nəzərdə tutur. İnnovativ təlimdə iş üsullarının seçilməsinə ciddi yanaşmaq lazımdır. Bu gün bir çox müəllimlər təlim nəticələrinə nail olmaq üçün müasir texnologiyalardan istifadə edirlər.

Təhsil eksperti Elçin Süleymanov:"İnkişaf etmiş ölkələrin müasir təhsil sistemini nəzərdə tutmaq lazımdır. Amma onun eynisinin Azərbaycana gətirmək çətindir. Çünki ölkənin vəziyyəti, mental dəyərləri eyni zamanda infrakstrukturu nəzərə almaq lazımdır. Xüsusilə keyfiyyətli dərslik və təhsil verənlərin yetişməsi bu təhsil sisteminin inkişafına müsbət təsir göstərir. Son illərdə həm direktorların seçimi, həm də müəllimlərin seçimi təhsilin inkşafıba çox müsbət təsir göstərir. Düzdür, sosial şəbəkələrdə bəzi adamlar təhsil sistemimizi təhqir edirlər. Amma ümumi nəticələrə baxanda, hər il ondan öncəki ilə nisbətən göstəricilər yaxşıdır.

Ölkədə 70/75 faizi yeni məktəblər, ya da əsaslı təmir olunmuş məktəblərdir. Və burada dediyim kimi, yaxşı məktəb, direktor, dərsliklər təhsil sisteminə müsbət təsir göstərir. Amma problemlər də var. Yaxşı məktəb idarəçisini seçmək birdən-birə çətin olur. Bəzən müəllimlərdən, bəzən də şagirdlərdən qaynaqlanan problemlər mövcuddur. Amma burada sistemli yanaşmanın tərəfdarıyam. Son illərdə məktəblərdə həyata keçirən müsbət və mənfi addımlar həyata keçirilir. Həm elektronlaşma ilə əlaqədar, həm də "Məktəblinin Dostu" lahiyəsi, diferensial əməkhaqqı sistemi, maaşların artırılması, məktəbdə psixoloq sayının artırılması və s. ölkənin beynəlxalq qiymətləndirmədə də özünü göstərir.

Amma müəyyən qədər dəyişikliklərə ehtiyac var. Düşünürəm ki, birinci növbədə məktəblərdə xüsusilə böyük siniflərdə tədrisə davamiyyətini artırmaq lazımdır.

Universitetlərə qəbul sisteminin məktəb sistemi ilə uyğunlaşması, məktəbdə verilən qiymətlərin qəbula təsiri, məktəblərin şagirdlərin davranışının qiymətləndirilməsi nəzərə almaq lazımdır. Orta məktəblərdəki şagirdlərin davranış nəticələrin qiymətlənməyə təsiri olsun. Başqa bir məsələ də Bakı və Abşeron ərazisində şagird sıxlığının yaşamasıdır. Bu məktəblərdə şagirdlərin bir az azaldılması faydalı ola bilər".

***Havar Şəfiyeva***



# Səbəbkar: tələbələr

MƏTANƏT

**Aylardan bəri nəqliyyatda yaşanan sıxlıq nəzərəçarpacaq dərəcədə azalmışdır, yəqin hər kəs bunun fərqinə varıb. Elə aylar öncə də bunun səbəbini çox yerdə axtarmalı olmuşduq. O atırdı bunun üstünə, bu atırdı onun üstünə. Hər kəs özünü təmizə çıxarmaqla məşğul idi.**

Axı nə üçün bizim nəqliyyatda bu qədər sıxlıq olmalıdır? Nə üçün evdən işə, işdən evə avtobuslarda və metroda tərin-suyun içində gedib-gəlməliyik? Bəli, marşrut üzrə işləyən avtobuslarda hələ də gecikmələr var. Bunu hər birimiz yaxşı bilirik. Niyə gecikirlər? Yəqin sayları azdır, bu səbəbdən də çatdıra bilmirlər.

Ötən ilin sonlarına doğru metroda yaranan vəziyyəti isə, gözlülər olsun, görməsin. Metroda platformada bəzi hallarda necə deyərlər, iynə atılsaydı, yerə düşməzdi. Burada həyat çox tez-tez elə dayanırdı ki, Allah göstərməsin. Bu axında qalan olubsa, nədən söhbət açdığımızı çox yaxşı bilir. Burada ta nəfəsin daraldı, ya ürəyin sıxıldı, ya əsəblərin bir anlıq pozuldu deyə bir şey olardısa, çıxış yolu da yox idi. Səninki qalırdı tək Yaradana. Buradan sağ-salamat çıxıb həyata qayıda da bilərdin, ölüb, həyatını elə buradaca tamamlaya da bilərdin. Şükürlər olsun ki, nəfəsi daranalar da, ürəyi sıxılanlar da saysız olsa da, lakin həyatını itirən olmadı. Allahın insanlara çox-çox yazığı gəldi.

Dəfələrlə belə də olub ki, platformada dayanıb ancaq qatarları saymaqla məşğul olmusan, lakin onlara minə bilməmisən. Çünki sən bir addım irəli getmək istəyəndə içəridən gələn təkan səni üç addımla platformadan divara doğru atıb. Sən də orada dayanıb "sənin qatarın getdi, həm də çoxdan getdi" deyimini xatırlayıb növbətini gözləməli olmusan. Bu səbəbləri metroda necə araşdırdılar, nə qənaətə gəldilər, vallah, deyə bilmərəm, amma bu dediklərimiz dəfələrlə yaşandı. Allah bundan betərindən saxlasın.

Marşrut avtobuslarda da eynilə. Biri gəlirdi, görürdün, elə doludur ki, camaat ayaq üstündə az qalır qapıdan yerə səpələnsin. Deyirdin, yaxşı qoy bu getsin, o biri gəlsin. Belə-belə, evə çatanda baxırdın ki, saat 18-də işdən çıxmısan, evə çatmısan 22-də-zadda. Başlayırdın deyinməyə ki, niyə gəldim axı bu evə, elə başımı işdə qoyardım masanın üstünə yuxulayardım da, yatmağa gəlmişəm məgər, ta səhərin açılmasına nə qaldı ki?..

Beləliklə xüsusilə ötən ilin axırlarında bu cür "məzəli" əhvalatlarla qarşılaşıb 2022-ci ili yola saldıq və hamımız da arzuladıq ki, bu cür dərdisərimiz, bu kimi problemlərimiz elə 2020-də qalsın. Deyəsən, Allah səsimizi eşidib, vallah. Günlərdir ki, bütün nəqliyyatlarda əməlli-başlı seyrəklikdir. Adam bir anlığa düşünməyə başlayır, vallah. Fikirləşirsən ki, deyəsən həqiqətən 2023-cü il bizə düşüb ey... Bu nə mənzərədir belə, yəni bir ay belə fərq edər? Niyə eləmir ki? Eləyib ki, belədir də.

Elə bu düşüncələrə daldığın anda birdən evdən uşaq zəng vurur ki, bəs evə gələndə filan şeyi də al. Sən də düşünürsən ki, bu uşaq evdə nə gəzir? Birdən ayılırsan ki, bəs tələbələrin tətilidir də, bu yazıq uşaq evdə olmayıb harada olacaq ki?.. Elə bu andaca onu da anlayırsan ki, elə nəqliyyatın sıxlıq səbəbi bu tələbələrmiş ki..

Yaxşı, nə edək ki, həmişə nəqliyyatda belə seyrəklik, gözəllik olsun? Bəli, bunun bir çox yolları var, demək istəyirdim ki, birdən xəbər yayıldı ki, metro və nəqliyyatda qiymətlər qalxdı, elə bu andaca matım-qutum elə qurudu ki, ardını yaza bilmədim, bağışlayın.

SİYASİ RAKURS+ÖZƏL

# İranın Azərbaycandakı casus şəbəkələri: xalq ayıq-sayıq olmalıdır!

**Agentlərin mollalardan aldıqları tapşırıq - çağdaş mədəniyyətə, multikulturalizmə, tolerantlıq mühitinə malik mövcud siyasi quruluşu dəyişərək Azərbaycanda qarmaqarışıqlıq yaratmaq, bu minvalla "kərimə dövlətini" qurmaq və nəticədə İranın kirli maraqlarının geosiyasi çevrəsini daha da genişləndirmək…**

**Etiraf edək ki, Azərbaycanda İrana bağlı kəşfiyyat orqanlarına işləyən agentlərin fəaliyyətləri müxtəlif dövrlərdə olub. Məhz "kərimə dövləti" yaratmaq adı altında İranın anti-Azərbaycan xarakterli siyasətinə dəstək göstərən, hətta həmin siyasətin müqabilində Yaxın Şərq ölkələrində cərəyan edən məlum proseslərə qoşulan Azərbaycan Respublikasının vətəndaşları da az olmayıb.**

İranın özündə, İraqda, Suriyada, Livanda fəaliyyət göstərən müxtəlif adda qrupların kəşfiyyat, döyüş taktikaları, silahlarla davranma təlimlərində iştirak etmələrindən sonrakı müddətdə, hətta silahlı qarşıdurmalarda da görünən belə agentlər Azərbaycanda da terror və s. aksiyaların keçirilməsində canfəşanlıq göstəriblər. Qanlı Nardaran hadisələrindən başlayaraq Hacı Cavad məscidinin sökülməsinə, habelə "hicab"la bağlı aksiyaların keçirilməsinə qədər baş verən bütün olayların arxasından bilavasitə İran kəşfiyyatına bağlı agentlərin çıxması da əbəs deyil.




## Bir sıra hallarda təhdidlər o qədər arta bilir ki...

Halbuki, bu gün Azərbaycanda istənilən şəxs yenə də Nardaranda ibadəti, eləcə də yeni tikilmiş Hacı Cavad məscidini ziyarət edə bilərlər və buna əsla maneələr də törədilmir. Eləcə hicabla bağlı da heç bir problemlərin yaşanmaması məhz belə qənaətə gətirir: məsələ heç də yuxarıda qeyd edilənlərdə deyil, məsələ Avropa və Asiya mədəniyyətlərini özündə birləşdirən dünyəvilik prinsiplərinə - çağdaş mədəniyyətə, multikulturalizmə, tolerantlıq mühitinə malik mövcud siyasi quruluşu dəyişərək Azərbaycanda qarmaqarışıqlıq yaratmaq, bu minvalla "kərimə dövlətini" qurmaq və nəticədə İranın kirli maraqlarının geosiyasi çevrəsini daha da genişləndirmək. Bütün bunlar üçün isə terror təhdidlərini artırmaq mühüm məqsəd kimi qəbul olunub.

Yeri gəlmişkən, bir sıra hallarda təhdidlər o qədər arta bilir ki, hətta jurnalistlər, qeyri-hökumət təşkilatlarının təmsilçiləri, dünyəvilik prinsiplərinə bağlı olan siyasi partiya təmsilçilərinə belə bu və ya digər şəkillərdə hədə-qorxular, təhdid-təhqir zəngləri edilir, onlar "islama", "şiəliyə" qarşı düşmən elan olunur, hətta "qiyabi" ölüm hökmləri kəsilir, "fətvalar" verilir.

Düzdür, bütün bunların qarşısı Azərbaycanın müvafiq təhlükəsizlik, mühafizə və s. güc strukturları tərəfindən qətiyyətlə alınır, amma məsələnin köklü şəkildə həll olunması, artıq bir zərurətə çevrilir və o da əbəs deyil ki, Bakıda İranın casus şəbəkəsinə qarşı növbəti xüsusi əməliyyat keçirilib və bu dəfə özlərini "media orqanları" pərdəsi altında gizləyən agentlər şəbəkəsi ifşa olunub. Mətbuatda yayılan informasiyaya görə, DİN tərəfindən əməliyyat keçirilən məkanlar arasında SalamNews informasiya agentliyi və "İnteraz" da var.

**Məlumatda bildirilir:**

-Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən həyata keçirilən xüsusi əməliyyat tədbirləri nəticəsində Bakıda və respublikanın digər bölgələrində 7 nəfər - A. T. Kərimov, E. A. Rəhimov, İ. Ə. Ələkbərov, M. N. Cəfərov, H. H. Cabbarlı, F. S. Əbdülov və A. Ə. Cümşüdov şübhəli şəxs qismində tutulublar.

"İnterAz" telekanalı 2002-ci ildə yaradılıb və 2007-ci ildə Rusiya Federal Vergi Xidmətinin Rayonlararası müfəttişliyində qeydiyyata alınıb. Əvvəllər baş ofisi Moskvada yerləşən kanalın təsisçisi tanınmış jurnalist Saleh Xudiyev olub. 2016-cı ildə telekanalı İranın Qum şəhərində və Suriyada dini təhsil almış "Hacı Mətləb" kimi tanınan Mətləb Bağırova alıb. Hazırda kanalın baş ofisi Türkiyəyə keçirilib və "Türksat" peyki üzərindən yayımı təşkil olunub. Telekanalda İranın rəsmi şəxslərinin açıqlamaları, bu ölkənin maraqlarına xidmət edən məlumatlar çoxluq təşkil edir. Əvvəlki dövrdə telekanalda hazırda "Nardaran hadisələri"nə görə həbsdə olan Hacı Taleh Bağırzadə, Hacı Zülfüqar Mikayılzadə və İranla yaxınlığı ilə seçilən digər dindarlar geniş reklam olunub.

Kanalın sahibi Mətləb Bağırov əslən Cəlilabad rayonundandır. Onun hətta İran, Rusiya və Azərbaycanda biznes obyektlərinin olduğu bildirilir.

"SalamNews" İnformasiya Agentliyi fəaliyyətə 2010-cu ilin mart ayının 1-dən başlayıb. İnformasiya Agentliyinin təsisçisi "İnterAz" TV-nin sahibi Hacı Mətləb Bağırovdur. Agentliyin Bakı ofisi "İnterAz" TV-nin Bakı nümayəndəliyi ilə eyni ünvanda, Yasamal rayonu ərazisində yerləşir. "SalamNews" İA-nın 2017-ci ildə farsdilli versiyası hazırlansa da, sonradan bu layihə qeyri-müəyyən səbəblərdən təxirə salınıb. Hazırda sayt Azərbaycan və rus dillərində fəaliyyət göstərir. "SalamNews" İA əvvəlki dövrdə geniş İranyönümlü dini təbliğat aparsa da, hazırda İranın rəsmi şəxslərinin, dindarlarının müxtəlif açıqlamalarını yayımlayır, dini maarifləndirmə xarakterli materiallar verir.

## Tehranın Azərbaycanda axtarışda olan həmin adamları rəsmi Bakıya təhvil verməmələri suallar doğurur

Beləliklə, təkcə bu faktın özü də sübut edir ki, İran adlı dırnaqarası islam respublikasının molla rejimi artıq açıq-aşkar şəkildə media sahəsində də fəaliyyətini genişləndirməyə cəhd göstərib və qeyd edilən şəbəkə də bunun isbatıdır.

Başqa tərəfdən, Tehran rejiminin özündə məskunlaşan və həmin ünvanlarından Azərbaycana qarşı təhdid, terror mesajları verən şəbəkə üzvlərinin məlum olmalarına, onlar haqqında cinayət işlərinin açılmasına rəğmən, rəsmi Tehranın Azərbaycanda axtarışda olan həmin adamları rəsmi Bakıya təhvil verməmələri suallar doğurur - hansı səbəbə görə, niyə Tohid İbrahimbəyli, Orxan Məmmədov bu günə qədər hələ də İranda əl-qollarını rahat şəkildə sallayaraq gəzirlər, üstəlik, Azərbaycana qarşı təhdid, terror çağırışlarını səsləndirməyə davam edirlər?

Onu da qeyd edək ki, həmin şəbəkə üzvlərinin əksəriyyəti Qumda oxuyublar və molla rejimindən, onun xüsusi xidmət orqanlarından aldıqları təlimata uyğun olaraq Azərbaycanda təxribatlar, dini məzhəb ayrı-seçkiliyi kimi cinayətkar əməllər törətmək üçün əllərindən gələni edirlər. Gah "dahi rəhbər"lərinin hər kəlməsinə əməl edib Azərbaycana mesaj göndərirlər, gah İranda oturub Azərbaycan xalqına, onun tarixi kökünə şər atırlar.

Bəli, beləlləri Azərbaycanın daxilində heç bir xaos, qarışıqlıq yarada bilmədilər, qaçaraq öz ağalarının rejimlərinə sığındılar. Bu gün Azərbaycana "mesaj göndərən"lərin içində Şeyx Bəxtiyar Bayramov, Şeyx Sərxan Məmmədov və Şeyx Əli Qumi kimi millət və dövlət xainləri xüsusi canfəşanlıq edib, "rəhbərlərinin" əmrlərini can-başla yerinə yetirmək üçün bəhsə-bəhsə girirlər.

Əlbəttə, hər hansı bir bəd əməlin də axırı olur və zaman göstərəcək ki, öz ölkəsinə, xalqına, vətəndaşlara, dövlət quruluşuna qarşı hədyanlar, terror çağırışları səsləndirənlərin beləlləri istər qanun, istərsə də mənəvi tərəfdən layiq olduqları cəzalarını alacaqlar!

**_Rövşən RƏSULOV_**

***P.S. Yeri gəlmişkən, Azərbaycana qarşı açıq-aşkar düşmənçilik mövqeyini sərgiləyən molla rejimi SEPAH-a bağlı terrorçunun Tehrandakı səfirliyimizdə törətdiyi terror cinayətini doğru-dürüst araşdırması yerinə, ölkə ictimai rəyində çaşqınlıq yaratmağa, əsl gerçəkliyi gizlətmək, ört-basdır etmək üçün feyk xəbərlər yaymağa cəhdlər göstərir, əsassız xəbərlərin yayılması istiqamətində məhz sosial və s. medialara bağlı casuslarından maksimum istifadə etməyə çalışırlar. Bu baxımdan, artıq Azərbaycan vətəndaşları da ayıq-sayıq olmalı, bu kimi yalan informasiyalara uymamalı, həmçinin şübhəli bilinən, görünən hər bir halla bağlı müvafiq strukturları məlumatlandırmalıdırlar.***

# Azərbaycan gəncliyi bu günümüz və uğurlu gələcəyimizdir!

## İlham Əliyev: "Gənclər həm öz gələcək həyatını düzgün müəyyən etmək üçün və eyni zamanda, dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar"



"Bu gün Azərbaycan gəncləri müstəqillik dövründə yaşayırlar. Bu, böyük xoşbəxtlikdir. Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev bildirib. Müstəqil dövlətimizin gəncləri ölkəmizin bütün sahələrində dəsti-xətti olan gənclikdir. Onların öz bilik və bacarıqlarının, təbii potensialının effektli reallaşdırılmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə dövlət tərəfindən müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafına səbəb olub. Gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsi məqsədi ilə istənilən şərait yaradılıb. Bu gün son 19 il ərizində görülən işlərə baxsaq, yüksək intellektual bacarıqlara malik olan və ölkənin ictimai-siyasi həyatında aktiv şəkildə fəaliyyət göstərən gənclər ordusunun formalaşdığını görmüş olarıq. Hazırda gənclər dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, idman, ordu və digər sahələrdə uğurla çalışaraq, ölkəmizi şərəflə və yüksək səviyyədə təmsil edirlər. Qürurla demək olar ki, bu gün Azərbaycan gəncliyi üzərinə götürdüyü şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacarır.

### "GƏNCLƏR BİZİM GƏLƏCƏYİMİZDİR"

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-gənclər siyasəti, sovet məkanında yaşadığımız illərə təsadüf edir. Belə ki, Ümummilli Lider Heydər Əliyev ötən əsrin 70-80-ci illərində Azərbaycan gənclərinin cəmiyyətin inkişafında rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək istiqamətində məqsədyönlü gənclər siyasətini həyata keçirib. Bu siyasətin davamı olaraq, Ulu Öndər Heydər Əliyev Azərbaycanda müstəqillik dövründə gənclər siyasətinə önəm verərək, onların təşkilatlanmasına xüsusi diqqət ayırır. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesində gənclərin rolunun müstəsnalığı nəzərə alınaraq, vahid gənclər siyasəti hazırlanıb, həyata keçirildi. Ümummilli Lider Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etdi. Ümummilli Lider Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan edib. Ulu Öndər Heydər Əliyev hər zaman "Gənclər bizim gələcəyimizdir" ifadəsini xüsusi vurğu ilə səsləndirərək, gənc nəsli ictimai-siyasi həyatda fəal iştirak etməyə həvəsləndirərək dövlət siyasətinin həyata keçirilməsində gənclərə xüsusi önəm vermişdi. Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, müstəqil Azərbaycan gənclərinin ilk Ümumrespublika Forumunun keçirilməsi, dövlət proqramlarının qəbulu, "Dövlət-gənclər siyasəti haqqında" Fərman və geniş Fəaliyyət Proqramının təsdiq edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğısı idi. 1997-ci ildə fevralın 2-nin Azərbaycan Gəncləri Günü elan edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərlə böyük qayğısının sübutu idi.

### "İSTƏNİLƏN SAHƏDƏ PEŞƏKAR OLMAQ HƏR BİR GƏNCİN, HƏR BİR İNSANIN HƏYATDA YAXŞI YER TUTMASINA GƏTİRİB ÇIXARACAQDIR"

Bu gün Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan böyük diqqətin nəticəsidir. Dövlət başçısının gənclərin xaricdə təhsil almalarına dəstək verən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar açmış oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan gəncliyinin savadına, bacarığına və gələcəyinə böyük inam bəsləyir: "...Hər bir insanın gücü, əlbəttə ki, onun biliyindən asılıdır. Ona görə mən əminəm, gənclərimiz bunu yaxşı başa düşürlər ki, yaxşı bilik almaq, yaxşı savad almaq və istənilən sahədə peşəkar olmaq hər bir gəncin, hər bir insanın həyatda yaxşı yer tutmasına gətirib çıxaracaqdır".

Eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2007-ci ilin ölkədə "Gənclər ili" elan olunması da Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramının səmərəli həyata keçirilməsi istiqamətində əhəmiyyətli oldu. Həyata keçirilən tədbirlər, islahatlar, dövlət proqramları əsasında deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin gənclərə qayğısı indi yeni mərhələyə qədəm qoyub. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.

Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafı Azərbaycan dövlətinin gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri edib. Bu zərurəti nəzərə alan dövlətimizin başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Daha sonra Prezident İlham Əliyev gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli, zərərli təsirin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi zərurəti ilə əlaqədar "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunmasına dair Sərəncamı gənclərlə bağlı bütün məsələlərin geniş əhatə olunduğu mühüm Sənəd Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə geniş imkanlar açmış oldu.

### "KÖNÜLLÜLƏR HƏRƏKATI "ASAN XİDMƏT"DƏN BAŞLADI"

2013-cü ildə ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı" təsis olundu, Azərbaycan gənclərinin İnkişaf Strategiyası təsdiqləndi. Bütün bunlarla yanaşı, ölkəmizdə könüllülük hərəkatı inkişaf edib. Son illər ölkəmizdə həyata keçirilən beynəlxalq və qitə miqyaslı tədbirlərdə, o cümlədən, idman yarışlarında gənclərin könüllülər qrupunda təmsil olunması vətənpərvər, milli köklərə bağlı, müasir dünyagörüşlü, şəxsi keyfiyyətləri yüksək olan vətəndaş kimi formalaşmasını özündə təcəssüm etdirir. Könüllülük fəaliyyəti gənclərdə faydalı əmək və həmrəylik kimi dəyərlər aşılamış olur. 2020-ci il Azərbaycan Respublikasında dövlət başçısının Sərəncamı ilə "Könüllülər İli" elan edildi. Bu Sərəncam gənclərin fərdi inkişafına təkan verərək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədi daşıyırdı. Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir. Öz iradəsi və sərbəst seçimi əsasında, əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti həyata keçirən könüllülük fəaliyyətinin əsasında, cəmiyyət naminə təmənnasız işlərin görülməsi dayanır. Ölkəmizdə könüllülük fəaliyyəti üçün hər cür şərait yaradılıb, bu istiqamətdə zəruri hüquqi baza mövcuddur. Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ-hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır.

### "VƏTƏN MÜHARİBƏSİNDƏ GƏNCLƏRİN ROLU HƏLLEDİCİ OLMUŞDUR VƏ BİZ HAQLI OLARAQ GƏNCLƏRİMİZLƏ FƏXR EDƏ BİLƏRİK"

Dövlətin gənclərə göstərdiyi diqqət və qayğı, həm də gənclərin üzərinə böyük məsuliyyət qoyur. Cənab İlham Əliyevin vurğuladığı kimi, "Hər bir gənc bilməlidir ki, bizim hamımızın əsas vəzifəsi dövlət müstəqilliyini möhkəmləndirməkdir, onu qorumaqdır". Bu gün Azərbaycan gənci qürurludur. Üzərinə düşən ən böyük məsuliyyəti dərk edərək işğal altında olan torpaqlarımızı qanı, canı bahasına azad etdi. Hər yerdən olduğu kimi gənclərimizin səsi müharibə bölgələrindən də eşidildi. Minlərlə gəncimiz vətən torpaqlarının azadlığı uğrurunda şəhid oldu. Son damla qanlarına qədər qəhrəmancasına vuruşdular. Budur, Azərbaycan gənci. Sağlam düşüncəli, qəhrəman, igid, cəsur Azərbaycan gəncliyi ilə qürür duyuruq. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğulların şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı. Bu qələbədə minlərlə azərbaycanlı gəncin payı var. Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən bu tarixi gündə gənclərimiz nəyə qadir olduqlarını göstərə bildilər. Azərbaycanın qələbə sorağı dünyaya yayıldı. Bu gün müstəqil Azərbaycan dövlətinin gəncləri vətənpərvər gənclərdir. Vətənpərvər ruhda tərbiyə almış Azərbaycan gənci hər qarış torpağın müdafiəsində dayandı. Gənclərin Vətən müharibəsi başlayanda könüllü olaraq orduya yazılması, vətən torpaqlarının müdafiəsinə qalxması vahid niyyət ətrafında birləşən gənclərimizin əzmkarlığını, vətənə sevgsini bir daha göstərimiş oldu. "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib", - deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirib.

Bəli, Azərbaycan tarixi ədaləti bərpa etdi. Azərbaycan Respublikasının dövlətçilik rəmzləri sırasında yer alan Dövlət Bayrağını hər şeydən uca tutan gənclərimiz qürur mənbəyimiz, and yerimiz olan Bayrağımız qarşısında baş əyərək müqəddəs varlıq kimi ona and içdilər. Bu Azərbaycan Ordusunun, gəncinin sahib olduğu gücə, bayrağımıza olan dərin məhəbbətindən və sədaqətindən qaynaqlandı. Azərbaycan əsgəri vətənimizin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı şərəfli əsgəri vəzifəsini yerinə yetirməyə başlayarkən, müqəddəs bayrağımıza and içir. Vətən torpağının bütövlüyü uğrunda şəhidliyə hazır olan Azərbaycan əsgəri o bayrağa sarılaraq şərəfli mübarizəyə qoşuldu. Budur bayrağın müqədəsliyi və bayrağımıza olan sevgi. Azərbaycan xalqının türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoluna çevrilən, azadlıq eşqimiz olan üçrəngli bayrağımız bu gün göylərə yüksəlib. Torpaq yolunda şəhid olan Azərbaycanın igid oğullarının qəlbimizdə abidələri ucalıb. Vətən savaşında şücaət göstərərk düşmənə dönməzliyini sübut edərək vətən qarşısında öz borclarını vermiş oldular. "Biz azad ölkədə yaşayırıq, sabitlik olan ölkədə yaşayırıq, özünə güvənən ölkədə yaşayırıq. Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq və gənclər həm öz gələcək həyatını düzgün müəyyən etmək üçün və eyni zamanda, dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar. Mən bu sözləri deməklə, eyni zamanda, Azərbaycan gənclərinə həm ürək sözlərimi deyirəm, həm də təşəkkür sözümü deyirəm. Çünki bir çox hallarda, xüsusilə Vətən müharibəsində gənclərin rolu həlledici olmuşdur və biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik", - deyə Prezident bildirib. Bu gün hər bir gəncin üzərində böyük məsuliyyət var. Hər bir gənc Azərbaycanın inkişafı, onun yüksəlməsi uğrunda daha da əzmlə çalışmalı, töhfələrini verməlidirlər. Qarabağın yenidən qurulmasında Azərbaycan gənclərinin rolu böyük olacaq.

Biz tarixi hadisələrlə zəngin bir dövrü yaşayırıq. Azərbaycan öz tarixində heç vaxt olmadığı qədər müstəqil və güclü dövlətə malikdir. O, regionda və dünyada sayılır və dövlətimizlə hesablaşırlar. Bunun arxasında əzmkarlıq, mübarizlik və düşünülmüş uzaqgörən siyasət dayanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ermənistanın seçimi: Qərb, yoxsa Rusiya?

**Ermənistanın "ver yeyim, ört yatım" siyasəti bu dəfə işə yaramadı. İşğalçı ölkənin ağasını dəyişmək qərarı Moskva və Brüsseldə (Parisdə) müxtəlif planların tərtibi istəyini artırıb. Moskvanın ermənilər üçün tarixin müxtəlif zamanlarında dövlət yaratması, bu qondarma dövlətin möhkəmlənməsi və yeni-yeni əraziləri özününküləşdirməsi "hay"larda arxayınlıq sindromunu möhkəmləndirmişdi. Heç də təsadüfi deyil ki, II Qarabağ müharibəsində məğlub olan Ermənistan bunun səbəbini də Rusiyada görmüşdü. İrəvan rəsmiləri Rus ordusunun onlara lazımi dəstək vermədiyini səbəb gətirərək Ermənistandan başqa daha 5 ölkənin təmsil olunduğu KTMT-dən çıxmağın, bununla da paralel olaraq Qərbin çətiri altına girməyin yollarını aramaqdadırlar. Bəs görəsən,Rusiyanın 200 illik mövcudluğundan sonar İrəvan Moskvanı Brüsselə (Parisə, Vaşinqtona) dəyişə biləcəkmi, yaxud buna İrəvanın imkanı çatırmı?**

Ermənistanın baş naziri Nikol Paşinyan bir sıra kiçik sensasiyaları ilə KTMT-nin təlimlərini qəbul etməkdən imtina edib və Transqafqazdakı rus sülhməramlılarının BMT qoşunları ilə əvəz oluna biləcəyinə eyham vurub. Paşinyanın Moskvanın regionda təsirini azaltmaq, İrəvanın Bakı və Ankara ilə problemlərinin həllini Qərbə həvalə etmək istəyi Ermənistanı dövlətçiliyini itirmək riskinə sürükləyir.

Nikol Paşinyan bəyan edib ki, Ermənistan KTMT-nin bu ay üçün nəzərdə tutulan və Ermənistan ərazisində keçirilməsi nəzərdə tutulan "Sarsılmaz qardaşlıq - 2023" təlimlərini keçirməkdən imtina edir. Bəyanat Rusiyanın Laçın yolu məsələsində mövqeyindən narazılıq fonunda verilib. Üstəlik, Paşinyan gələcəkdə Rusiyanın Qarabağda sülhməramlı missiyasının perspektivlərini (buraya rusların əvəzinə BMT sülhməramlılarını dəvət edə bilər) və Rusiyanın Ermənistandakı hərbi mövcudluğunu şübhə altına alıb. "Son vaxtlar qərbli həmkarları ilə təmaslar zamanı Azərbaycan öz hərəkətlərini Ermənistan və Rusiyanın Azərbaycana qarşı birgə təcavüzkar hərəkətlər hazırlaması kimi əsaslandırır. Rusiyalı həmkarların susqunluğu şəraitində belə çıxır ki, Rusiyanın Ermənistanda hərbi mövcudluğu nəinki Ermənistanın təhlükəsizliyinə təminat vermir, əksinə, respublikanın təhlükəsizliyinə təhdidlər yaradır", - deyə baş nazir bildirib.

Paşinyanın sözləri iki tendensiyanın məntiqi nəticəsidir. Bunlardan birincisi Azərbaycan və Türkiyənin Qarabağ nizamlanmasının əsaslarını sarsıtmaq üçün sistemli siyasətidir. Bunun həm taktiki, həm də strateji ölçüsü var. Taktiki baxımdan, Azərbaycan Rusiya resurslarının Ukrayna müharibəsinə cəlb olunmasından istifadə edərək, İkinci Qarabağ Müharibəsinin onsuz da qələbə qazanmış nəticələrini onun üçün yenidən nəzərdən keçirməyə çalışır. Xüsusən də Qarabağın Moskvanın xilas etdiyi hissəsini də haqlı olaraq nəzarət altına almaq, orada qanunsuz olaraq məskunlaşdırılmış erməniləri buranı tərk etməyə məcbur etmək. Görünür, Azərbaycan Moskvanın belə siyasətə müdaxilə etməyəcəyini bilir.

"Ukraynada Qərblə dərinləşən qarşıdurma fonunda Rusiya Cənubi Qafqazda Ankara-Bakı tandemindən daha çox asılıdır", - politoloq Sergey Markedonov iddia edir.

Strateji baxımdan türk siyasətinin məqsədi Rusiya-Ermənistan müttəfiqliyini məhv etmək və Rusiyanı Cənubi Qafqaz ərazisində neytrallaşdırmaqdır. "Ukraynada müharibə başa çatdıqdan sonra Rusiya Cənubi Qafqaz siyasəti ilə məşğul ola bilər. Amma əgər Rusiya indi Ermənistandan sıxışdırılıb çıxarılarsa, o zaman regiondakı mövcudluğunu və deməli, eyni düzəliş etmək şansını itirəcək", - erməni jurnalist Hayk Xalatyan bildirib. Maraqlıdır ki, Qərb yerli hakimiyyətin əli ilə Rusiyanı Ermənistandan sıxışdırıb çıxarmağa çalışır.






"Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsi üçün pult əslində Bakının əlindədir. Azərbaycan öz addımları ilə Ermənistan cəmiyyətinin gözündə Rusiyanı nüfuzdan salmağa, ikitərəfli münasibətləri parçalamağa çalışır", - Xalatyan deyir.

Belə görünür ki, Ermənistan rəhbərliyi adi insanlardan fərqli olaraq, geosiyasətin incəliklərini dərk etməlidir. Və başa düşmək lazımdır ki, Rusiya-Ermənistan münasibətlərinin pozulması Moskva üçün problemlər yaradacaq, lakin Ermənistan üçün bu, dövlətçiliyin itirilməsi ilə dolu əsl fəlakətə çevriləcək.

Ancaq ikinci bir tendensiya da var. Bir sıra ekspertlərin fikrincə, Paşinyan hökuməti Rusiyanı Ermənistandan sıxışdırmaqda maraqlı ola bilər. Qismən baş nazirin şəxsi fikirlərinə görə (hakimiyyətə gəlməzdən əvvəl o, KTMT və Avrasiya inteqrasiyasının əleyhdarı idi), qismən də hazırkı baş nazirin rəhbər tutduğu amerikalıların və avropalıların maraqlarına uyğundur. "Ermənistanın KTMT ilə bağlı nəsə etməyəcəyi ilə bağlı bəyanatlar heç bir şəkildə Ermənistanı gücləndirmir. Amma onlar yalnız onu göstərirlər ki, Paşinyan hökuməti müttəfiqini dəyişmək kursundadır, Qərbi regiona cəlb etmək istəyir. Ümid etmək olar ki, Qərb, ABŞ, Fransa Türkiyə və Azərbaycanla məşğul olmağa kömək edəcək. Ancaq onlar heç vaxt etmədilər və etməyəcəklər. Çünki onlar üçün, xüsusən də ABŞ üçün ən vacibi Rusiyanı bu bölgədən çıxarmaqdır. Qalan hər şey - erməni əhalisinin və Qarabağın taleyi onları çox az dərəcədə maraqlandırır", - Dövlət Dumasının həmvətənlərlə iş üzrə komitəsi sədrinin birinci müavini Konstantin Zatulin deyir.

"Başqa sülhməramlıların olacağına şübhə edirəm. Qərb onları göndərmək istəyəcək və amma Azərbaycan buna icazə verəcəkmi?", - Xalatyan deyir.

Nə olursa olsun, Fransa və ABŞ (ritorik olaraq İrəvanı dəstəkləyir) Ermənistandakı anti-Rusiya KİV-lərinə Rusiya sülhməramlılarına real alternativ kimi yerləşdirməyə imkan verir. Əhali arasında reallıqda olmayan seçim illüziyası yaratmaq və bu illüziya əsasında Rusiya qoşunlarının və inteqrasiya strukturlarının Ermənistandan çıxarılmasına can atmaq.

Moskvada hamı bunu başa düşür, lakin hələlik eskalasiyadan qaçmağa çalışırlar. "Bu, Ermənistanın baş nazirinin kifayət qədər yeni bəyanatıdır, düşünürəm ki, KTMT-dən olan həmkarlar əlaqə saxlayacaq, Ermənistanın mövqeyinin təfərrüatlarına aydınlıq gətirəcəklər. Hər halda, Ermənistan bizim çox yaxın müttəfiqimizdir, biz dialoqu davam etdirəcəyik, o cümlədən indi çox çətin olan məsələlər", - Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov təlimlərin ləğvini şərh edib.

Bununla belə, Qarabağdan nisbətən uzaq olan başqa cəbhələr də var ki, burada həm İrəvanın, həm də Bakının davranışını korreksiya etmək mümkündür. Rusiyanın Ukraynadakı xüsusi əməliyyatı nə qədər uğurlu olarsa, Moskvanın Cənubi Qafqazdakı düşmənləri də bir o qədər ehtiyatlı davranacaq. Axı Rusiyanın bu intriqaları istəməyə gücü çatmayacağı ümidi ilə ona qarşı intriqa qurmaq bir şeydir. Qələbədən sonra Rusiyanın "ehtiyac saatından" istifadə etməyə çalışanların hamısına mütləq cavab verəcəyini başa düşmək tamam başqadır.

## Rusiya Fransada zəif yer tapıb

2022-ci il fevralın 24-dən Rusiya Qərblə qarşıdurmanın ciddi və uzun müddətdir olmasına öyrəşib. Qarşıdurma coğrafiyası artıq ABŞ və Böyük Britaniya ilə birlikdə Rusiya ilə əlaqələri kəsməyə həvəslə gedən Avropa ilə məhdudlaşmır. Bizi ən çox Fransa maraqlandırır - Almaniyadan daha çox Avropada hegemonluq hüququ olan ölkə. Eyni zamanda, Rusiyada postsovet dövründə Fransa ənənəvi olaraq daha sərt mövqe tutan və ABŞ-ın siyasətinin ardınca gedən Şərqi Avropalıların fonunda seçilən konstruktiv ölkələrdən biri hesab olunurdu. Buna baxmayaraq, hazırda Rusiya ilə Fransa arasında münasibətləri açıq şəkildə düşmənçilik adlandırmaq olar.

Əsas səbəb Fransanın siyasi təbəqəsinin Rusiyaya münasibətinin yanlış anlaşılmasıdır. Beləliklə, Rusiyada çox sevilən, "Atalar Avropası" konsepsiyasını irəli sürən prezident Şarl de Qoll hesab edirdi ki, Sovet İttifaqının müttəfiqi olan Şərqi Avropa ölkələri Kremlin təsirindən çıxmalıdır. Rusiya yalnız kommunist ideologiyası və "imperiya iddiaları" rədd edildikdən sonra "Atlantikdən Urala qədər Avropaya" daxil olmağa dəvət edildi. Yəni ənənəvi olaraq Fransa üçün Rusiya Böyük Britaniya, ABŞ və Almaniya ilə eyni düşməndir.

*Ardı Səh. 13*

# Ermənistanın seçimi: Qərb, yoxsa Rusiya?

Əvvəli Səh.12

Oxşar fikirlər müasir fransız siyasətçiləri üçün xarakterikdir. Belə ki, 2022-ci ilin dekabrında 2012-2017-ci illərdə Fransanın keçmiş prezidenti olmuş Fransua Olland müsahibə verərək Rusiya ilə bağlı fikirlərini bildirib: "2012-ci ildə Kremlə qayıdan Vladimir Putinin arzusu Sovet İttifaqını yenidən yaratmaq idi. Putin aqressiv mövqe tutaraq Qərbin reaksiyasını gözləməyə başladı. O, təxribatçı və aqressiv idi. ABŞ Putini əsas rəqib kimi göstərirdi. 2014-cü ildə Vladimir Putin daha tez qazanc əldə etməyin yolların axtarırdı. Onun Donbasda fəaliyyəti birbaşa öz ordusu vasitəsilə deyil, rusiyayönlü separatçıların köməyi ilə olub, baxmayaraq ki, rusların Donbasda olması və rus silahlarının separatçılara paylanması barədə aydın sübutlar var idi. Bununla belə, beynəlxalq təcrid qorxusu o demək idi ki, Putin müharibənin yekun həllini axtarmır, əksinə, artıq güc yolu ilə əldə etdiklərini möhkəmləndirmək istəyir. Beləliklə, biz onu Normandiya formatının qəbuluna apardıq, sonra danışıqlar üçün Minskə getdik. Beləliklə, Putinin həmin gecə məqsədi mümkün olan maksimum ərazi qazancını əldə etmək üçün atəşkəsi mümkün qədər gecikdirmək idi. O, həmçinin bir gün ilhaq üçün hazırlaya biləcəyini düşündüyü qondarma rusdilli bölgələr üçün daha çox "muxtariyyət" istəyirdi.

Yəni, Fransanın eks-prezidentinin sözlərinə görə, rəsmi Paris yalnız Avropanın əlavəsi olan Rusiyanı normal hesab edirdi. Ollandın müsahibəsinin başqa bir hissəsi də az maraqlı deyil: "Minsk razılaşmaları Rusiyanın hücumunu bir müddət dayandırdı. Çox vacib olan Qərbin Rusiyanın növbəti cəhdlərinin qarşısını almaq üçün bu möhlətdən necə istifadə edəcəyini bilmək idi. Bəs o vaxtdan bəri nə baş verdi? Biz artıq Putinə Suriya diktatoru Bəşər Əsədi dəstəklədiyi üçün "pulsuz lisenziya" verilərkən amerikalıların Suriyada beynəlxalq arenadan çəkildiyini görmüşük. Trampın prezidentliyi onun köhnəlmiş hesab etdiyi Atlantik alyansda avropalılarla ABŞ arasında əlaqələri zəiflətdi... 2014-cü ildən Ukrayna hərbi imkanlarını artırdı. Doğrudan da, Ukrayna ordusu 2014-cü ildəki kimi deyil. O, daha yaxşı təlim keçmiş və təchiz edilmişdi. Minsk razılaşmalarının məziyyəti ondan ibarətdir ki, onlar Ukrayna ordusuna belə bir fürsət verib. Bundan əlavə, Avropa parçalanmadı və dərhal Ukraynanı dəstəklədi, ABŞ isə kifayət qədər yardım etdi".



Ancaq ən təsirlisi, Almaniyanın keçmiş kansleri Angela Merkelin etirafından sonra eyni müsahibədə elan edən Fransanın eksprezidentinin kinsizliyidir: "Lakin Putin Normandiya formatını qəbul etdi, bu format ondan Minsk razılaşmalarının həyata keçirilməsində əldə ediləcək tərəqqi barədə mütəmadi olaraq hesabat verməsini tələb etdi. Hər ay biz Pyotr Poroşenko (Ukraynanın eks-prezidenti), Angela Merkel, Vladimir Putinlə uzun telefon danışıqlarımız olub, Minsk protokollarının icrası ilə bağlı məlumat mübadiləsi aparmışıq. Açıq-aşkar istəksizlik olduğunu görsək də, yenə də dialoq var idi. 2017-ci ildən 2018-ci ilə qədər bu "Normandiya formatı" son ayağında idi... Putinin 2015-ci ildə məqsədi cəbhə xəttini mümkün qədər uzağa aparmaq idi. Mariupol artıq onun gözü qarşısında idi. Minsk razılaşmaları və ondan sonra əldə edilən atəşkəs separatçıların nəzarətində olan ərazilərin genişləndirilməsinə imkan vermədi. Bu, onların güclü tərəflərindən biridir".

Bir sözlə, Makron Belarus və Ukraynaya tarixən Fransa ilə müttəfiq olan Polşanın gözü ilə baxır, bunun üçün belaruslar və ukraynalılar bir-birinə qan qohumu olan slavyanlardır, Rusiyanın sakinləri isə qeyri-avropalı və qeyri-slavyan xalqdır.




Zaqafqaziyada isə Fransa açıq şəkildə ictimai rəyi manipulyasiya edərək Rusiyanı Ermənistandan sıxışdırmağa çalışır. Belə ki, Senat və Milli Assambleyanın 2022-ci ildə qəbul etdiyi qətnamələrə baxmayaraq, Fransa Qarabağdakı qondarma qurumu dövlət kimi tanımaq niyyətində deyil, hər yerdə Beşinci Respublika mümkün yollla özünü Ermənistan üçün himayədar və qardaş ölkə kimi göstərir. Parisin bu cür fəaliyyəti bir millət olaraq ruslara nifrət edən Ermənistanın ekstremist qüvvələrinin dəstəyi ilə müşayiət olunur. Beləliklə, Rusiya hərbi bazasının Gümrüdən çıxarılmasını və Rusiya ilə qopmağı müdafiə edən Milli Demokratik Qütb hərəkatı açıq şəkildə Fransaya yönəlib.

Fransanın postsovet məkanında belə siyasəti fonunda Rusiya Afrika ölkələrinə diqqət yetirməyə bilməzdi. Yadda saxlamaq lazımdır ki, Afrika sürətlə artan əhalisi olan perspektivli bazar, eləcə də dövri cədvəlin demək olar ki, bütün elementlərinin yerləşdiyi qitədir. Bundan əlavə, müstəmləkə imperiyasının dağılmasından sonra da Fransa keçmiş Afrika müstəmləkələrində hələ də güclü təsirini saxlayıb. Belə bir şəraitdə Beşinci Respublikanı Afrika ölkələrindən sıxışdırmadan onun iqtisadi qüdrətini sarsıtmağa çalışmaq mənasızdır.

Bundan əlavə, Fransa postsovet məkanında Rusiya İmperiyası və Sovet İttifaqı dövrünə nifrət edən qüvvələrə qüdrətlə və əsas etibarilə dəstək verir. Rusiyanın isə Afrikada heç vaxt müstəmləkələri olmayıb və neqroid irqli, Mərkəzi Afrika Respublikası, Mali və Burkina-Faso xalqlarını Fransız neokolonializminə qarşı mübarizədə dəstəkləyir.

Təbii ki, Fransa Rusiyanın Afrika ölkələrinə nüfuz etməsindən hiddətlənir. Afrikada mövcud olan və Ukrayna Silahlı Qüvvələrinə qarşı döyüşlərdə iştirak edən Beşinci Respublikanın nifrət etdiyi Vaqner hərbləşdirilmiş qrupu fəaliyyəti ilə yanaşı, Fransa Rusiyanın Afrika qitəsi ölkələri ilə hərbi-texniki əməkdaşlığına qarşıdır. Belə ki, yanvarın 19-da Rusiya təyyarələrini Mali ordusuna təhvil verib. Mali bir Su-25 hücum təyyarəsi, 5 Aero L-39 Albatros təlim-nəqliyyat təyyarəsi və 2 Mi-8 helikopteri alıb. Avadanlıqların təhvil verilməsi mərasimində Rusiya səfiri İqor Qromıko və Maliyə rəhbərlik edən polkovnik Assimi Qoita iştirak ediblər. Mali Hərbi Hava Qüvvələrinin komandanı general Alou Boy Diarra texnikanın ötürülməsini Afrika ölkəsinin silahlı qüvvələrinin "görünməmiş" modernləşdirilməsində mühüm addım adlandırıb. Xarakterikdir ki, 2021 və 2022-ci illərdə Rusiya artıq Maliyə az da olsa hərbi texnika tədarük edib.

Amma Burkina Fasoda Fransanın üstünlüyü sarsılıb. Yanvarın 26-da məlum olub ki, Fransa Uaqaduqudakı (Burkina Fasonun paytaxtı) səfiri Luk Alladanı məsləhətləşmələr üçün geri çağırır. Bundan əvvəl Afrika ölkəsinin hakimiyyəti Fransaya Burkina Fasodan qoşunlarını çıxarmaq üçün bir ay vaxt verib. Bu, Fransa ilə 2018-ci il hərbi əməkdaşlıq sazişinin denonsasiyasından sonra baş verib. Burkina Faso Sahel bölgəsində Malidən sonra fransız qoşunlarının ərazilərini tərk etməsini tələb edən ikinci ölkə oldu. Burkina Faso rəhbəri, kapitan İbrahim Traore Uaqduqu yaxınlığındakı Kamboinsin bazasında yerləşdirilən 400 fransız xüsusi təyinatlısının ölkəni tərk etməsini istəyir. Burkina Fasoda yerləşən Fransa hərbçiləri Saber əməliyyatında iştirak edib.




Son aylarda həm Fransa, həm də ABŞ Wagner dəstəsinin Burkina Fasoya sızdığını iddia edir. Biz dəqiq deyə bilmərik ki, rus hərbçiləri həqiqətən də Fransanın başqa bir keçmiş müstəmləkəsində fəaliyyət göstərirlər, ya yox. Biz yalnız bir şeyi bilirik: Vaşinqtonun, Parisin və Brüsselin ağrılı reaksiyası onu deməyə əsas verir ki, Afrika olmadan Fransa və bütün Avropa İttifaqının iqtisadi gücü azalacaq.




**V.VƏLİYEV**

ŞƏRH + AKTUAL

# Azərbaycan Beynəlxalq Məhkəmədə: erməni iddiaları at-üst oldu!

## Onlar çullarını sudan quru çıxarmaq üçün şər-böhtan siyasəti ilə məşğuldurlar və başqa heç nə...



**Azərbaycan tərəfi Beynəlxalq Məhkəmədə Ermənistanın Qarabağdakı qanunsuz iqtisadi fəaliyyəti nəticəsində ekologiyamıza vurulan nəhəng zərəri sübut etdi. Qeyd edək ki, bu barədə Azərbaycanın Niderland Krallığındakı səfiri Rəhman Mustafayev özünün tvitter səhifəsində yazıb.**

"Laçın yolunun bağlanmasını sübut edən heç bir real faktlar yoxdur. Ermənistan Azərbaycandan fərqli olaraq situasiyanın tənzimlənməsinə və dialoqun aparılmasına cəhd etmir", - deyə diplomatımız bildirib.

Məhz bu reallığı nəzərə alaraq onu da qeyd edə bilərik ki, nəinki Azərbaycanın mövqeyini kifayət qədər peşəkarlıqla müdafiə edən vəkillər, eləcə də ən sadə Azərbaycan vətəndaşı istənilən zaman ermənilərin vurduqları ziyanları bütün arqumentləri ilə isbat edə bilər. Çünki əlahəzrət fakt ortadadır! Fakt həm də ondadır ki, erməni tərəfi, sadəcə, isterik və yalançıdır. Onlar çullarını sudan quru çıxarmaq üçün şər-böhtan siyasəti ilə məşğuldurlar və başqa heç nə...



### Ədalətli şəkildə vurğulandı ki, Ermənistanın öz "sübutlarını" Beynəlxalq Məhkəməyə təqdim etməyə 40 gün vaxtı var idi, lakin bunu edə bilmədi!

Beləliklə, bizim vəkillər inamlı, nizamlı qaydada Ermənistanın şikayət xarakterli ritorikalarını hüquqi bazalar əsasında yerlə-yeksan etdilər. Ədalətli şəkildə vurğulandı ki, Ermənistanın öz "sübutlarını" Beynəlxalq Məhkəməyə təqdim etməyə 40 gün vaxtları var idi, lakin bunu edə bilmədilər. Onlardan fərqli olaraq isə Azərbaycanın əlində fotolar və s. materiallar var və onlar Beynəlxalq Məhkəməyə təqdim olundu. İsbat edildi ki, Laçın yolu açıqdır, üstəlik, qızıl yataqlarımız erməni cinayətkarları və onların xarici havadarları tərəfindən talan olunub.

### Azərbaycanın qızılı və s. faydalı qazıntıları ermənilər tərəfindən deyil, misal üçün, papuaslar, yaxud zimbabvelilər tərəfindən talan edilsəydi, həmin aksiya yenə də öz tələbləri ilə baş tutacaqdı

Erməni tərəfinin "etnik təmizlənməyə məruz qalma" iddialarına da nöqtə qoyulub. Yəni Laçın yolu üzərindəki ekoloji aksiya heç də buna hesablanmayıb. Daha dəqiq desək, Azərbaycanın qızılı və s. faydalı qazıntıları ermənilər tərəfindən deyil, misal üçün, papuaslar, yaxud zimbabvelilər tərəfindən talan edilsəydi, həmin aksiya yenə də öz tələbləri ilə baş tutacaqdı. Fakt budur ki, məsələ "etnik" müstəvidə deyil, məhz ekoloji müstəvidə qaldırılıb!

Nəticədə Ermənistan tərəfi daha bir çıxılmaz vəziyyətdə də qalıb. Beynəlxalq Məhkəmədə sual olunanda ki, əgər həqiqətən də humanitar böhran varsa, onda Ermənistan nəyə görə danışıqlardan, dialoqdan yayınmaqla məşğuldur? İrəvan bu sualın da qarşısında susdu...

Daha bir aqrument: Beynəlxalq Məhkəməyə dəmir-beton arqumentlər qoyulub. Məsələn, vurğulanıb ki, Laçın yolu üçtərəfli Bəyanata əsasən 5 il müddətinə Rusiya sülhməramlıları kontingentinin nəzarətinə verilib. Azərbaycan bu yolda baş verənlərə görə məsuliyyət daşımır. Yəni erməni tərəfinin sualları varsa, onları Rusiyaya ünvanlasınlar. Azərbaycana şikayət etmək yerinə Ermənistan ruslarla danışmalı, onlara şikayət etməlidirlər. Çünki Rusiya bu məsələdə humanitar aspektləri nəzarətə götürməyi öz üzərinə alıb.

Ancaq bu da son deyil. Azərbaycan Beynəlxalq Məhkəmədə bir sıra danılmaz arqumentləri önə sürməklə erməni tərəfini mat vəziyyətində qoyub.

Qalır bir məsələ - əgər Beynəlxalq Məhkəmədə "qədim erməni dolması həvəskarı" olan hakimlər olmasa, Ermənistanın iddiaları, sadəcə, zibil yeşiyinə atılacaq. Hələlik isə Məhkəmə Azərbaycanın iddialarını dinləməyə hazırlaşır...

*Rövşən RƏSULOV*



İLHAM

# Ey filan-filan olmuş şudəyi - zəbər

**Terror ağrı, acı, ölüm, dağıntı bir sözlə fəlakət deməkdir. Müasir dövrdə terrorun hər cür növünə qarşı dövlətlər və beynəlxalq təşkilatlar mübarizə aparsalarda hələ də insanlıq əleyhinə olan cinayətin qarşısını almaq mümükün deyil. Hələ də terrordan əziyyət çəkən dövlətlər və xalqlar var. Hər gün dünyanın müxtəlif bölgələrində hansısa terror təşkilatının şəhər və qəsəbələrdə, məscidlərdə törətdikləri terror aktından onlarla insanın həyatını itirməsi barədə məlumatlar oxuyur və ya televiziyalardan seyr edirik. Əl-Əzhər Universitetinin "İslami Araşdırmalar" məcmuəsi terrorla bağlı qeydlərində vurğulanır ki, "terror dinc insanları qorxutmaq, onların yaşayışını məhv etmək, mallarına, namuslarına, azadlıqlarına təcavüz etmək və yer üzərində fitnə-fəsad törətməkdir. Terrorun baş verdiyi ölkənin haqqıdır ki, terroru törədən caniləri həbs edərək mühakimə etsin və beləliklə ədalət öz yerini tapmış olsun".**

Nəyə görə, terrorçular zərərsizləşdirilir, ancaq terror davam edir, hətta demək olar ki, bir qədərdə təkmil və amansız xarekter daşımaqla? Digər tərəfdən terror nədən yaranır? Birmənalı şəkildə demək olar ki, elə rejimlər var ki, terroru dövlət siyasətinə çeviriblər. Özlərini qorumağın, dünyada xalqlararasında qorxu rühu yaratmaq üçün terrordan geninə-boluna istifadə edirlər. Misal olaraq Ermənistanı və Molla rejimini göstərmək olar. Düzdür terror ilk olaraq Fransa inqilabından (1789-1794) sonra meydana çıxmağa başladı. İnqilabçılar kralın ətrafında olanları sırdan çıxarmaq üçün pusqular qurur və həmin şəxsi terror aktları törətməklə sıradan çıxarırlar. Həmçinin Fransa inqilabçıları insanların toplaşıqları yerlərdə partlayşlar törədir və bununlada ölkədə vahimə yaratmağa çalışırlar. Bir sözlə, fransızların səpdikləri terror töxumu sonrakı mərhələdə inkişaf edərək dünyaya yayıldı. Bu gün zəiflər onları əzməyə, hər zaman təsirləri altında saxlamağa çalışan güclülərə qarşı terror vasitələri ilə cavab verməyə çalışırlar. ABŞ-da baş verən 11 sentyabr 2001-ci il hadisəsindən sonra məlum oldu ki, hətta super güclər belə terrorun qarşısını almaqda acizdir. Əgər terrorçu və terror təşkilatı qarşısına məqsəd qoyubsa, terrorun törədilməsi qaçılmazdır. Dəfələrlə Ermənistan və molla rejimi birgə hərəkət etməklə Azərbaycan dövlətinə və xalqına qarşı terror aktları, soyqırımılar həyata keçiriblər. Elə uzağa getməyək, yanvarın 27-i səhər saatlarında qədim Azərbaycan şəhəri Tehranda yerləşən səfirliyimizə olan xain hücum və bu hücum nəticəsində bir nəfərin şəhid edilməsi və iki nəfər səfirlik əməkdaşının yaralanması molla rejiminin əsas silahının terror olduğunu təsdiqlədi.

Məlum oldu ki, molla rejiminin işkəncə maşını SEPAH terror aktını əvvəlcədən planlaşdırıb və həyata keçirib. İyrənclik həm də ondan ibarətdir ki, molla rejiminin təbliğat yuvası olan "Səhər"TV-nin mikrafonları önündə terrorçu cəh-cəh vurub, təqdim olunan tezisləri ifadə etdi. Dünyanın heç bir yerində belə biabırçılıq və həyasızlıq yoxdur. Bu birbaşa öz məhsullarını təbliğ və təqdim etməkdir. Bizlər də bir el məsələsi var, deyilir ki, "alisi dəli, vəlisi dəli, qırılmışın hamsı dəli". Molla rejiminin içərisində normal birisi yoxdur ki, oturub, onunla söhbət edəsən və başa salasanki, ey, əclafü- mərəndə əl çəkin terrorçu xislətinizdən. Sonra da deyəsən ki, ey filan-filan olmuş şudəyi - zəbər rədd olun gedin həmfikiriniz və terrorçu qardaşlarınız olan erməni dığalarının yanına ki, cəmü millət rahat nəfəs alsın. Görünən isə ondan ibarətdir ki, molla rejimi arasında ağllı məxluqat yoxdur. Yəni qırılmışın hamsı dəlidir. Bu isə onu deməyə əsas verir ki, bu dəli yığnağı düzələn deyil və yeni-yeni terror aktlarının davam etdirilməsi qaçılmazdır.

Nəzərə almaq lazımdır ki, Azərbaycanın Böyük Britaniyadakı səfirliyinə də hücumu molla rejiminin Xüsusi Xidmət orqanları təşkil etmişdir. Azərbaycana qarşı düşmənçilik siyasəti aparan molla qafalar digər səfirliklərimizə də hücümlar təşkil edə bilər. Bu baxımdan ayıq-sayıq olmalı və ehtiyatlı davranmalıyıq. Son olaraq da onu vurğulamaq lazımdır ki, molla rejiminin islama heç bir aidiyyatı yoxdur. Onların ibadət etdiyi dinin islama heç bir dəxli yoxdur. İslam dini sülh və əminəmnlıq dinidir. İslam dini müsəlmanları bir-birinə qardaş olmağa çağıran dindir.

Nəhayət İslm dini vəhşiliyin, qəddarlığın, terrorun, bir sözlə insanlığa və bəşəriyyətə qarşı yönəlik cinayətlərin əleyhinədir. Uca Allah müqəddəs kitabımız olan Qurani-Kərimdə buyurmuşdur: "Yer üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən, Allah fitnə-fəsad törədənləri sevməz!".

# Enerji təhlükəsizliyi:

## Azərbaycan ən etibarlı tərəfdaşdır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*

**Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 29-u və 30-da Macarıstanda rəsmi səfərdə olub. Səfər zamanı müxtəlif görüşlər keçirilib, iki ölkə arasında bir sıra sənədlər imzalanıb. Görüşdə ən vacib məsələ enerji təhlükəsizliyi ilə bağlı olub. Azərbaycan qazının və elektrik enerjisinin Avropaya nəqlinin hazırda çox vacib məsələ olduğu məlumdur. Bu cəhətdən görüşün əhəmiyyəti çox yüksək qiymətləndirilir.**

Prezident İlham Əliyevin Macarıstan Prezidenti xanım Katalin Novak ilə geniş tərkibdə görüşündə ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Macarıstan ilə Azərbaycan arasında qarşılıqlı hörmət və etimadın olduğunu vurğulayan Katalin Novak qeyd edib ki, enerji sahəsində əməkdaşlıq ölkələrimiz arasında ən mühüm məsələlərdən biridir: "Əfsuslar olsun ki, sizdən fərqli olaraq, bizim bəxtimiz o qədər də gətirməyib. Yüz ildən artıq dövr ərzində biz öz təbii enerji sərvətlərimizdən məhrum olmuşuq. Onlar artıq bizdə deyil. Enerji resurslarımızın şaxələndirilməsi üçün bizə yaxşı dost və tərəfdaşlar lazımdır. Çünki bildiyimiz kimi, hazırda biz Rusiyanın neft və qazından asılıyıq. Biz həmin məsələni, hazırda davam edən müharibəni və gözləntiləri müzakirə etdik. Bir sözlə, cənab Prezident, səfərinizə görə bir daha minnətdarıq".

Azərbaycan Prezidenti də öz növbəsində vurğulayıb ki, enerji məsələsi gündəlikdə birinci yerdədir: "Bu gün biz mühüm Anlaşma Memorandumunu imzalayacağıq və mən bunu çox mühüm addım hesab edirəm, çünki o, qaz təchizatı sahəsində əməkdaşlığa başlamaq üçün imzalanacaq ilk sənəddir".

Qeyd edək ki, bundan əvvəl Prezident İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə görüşündə də enerji sahəsində əməkdaşlıq əsas məqam olub. Görüşdən sonra mətbuata bəyanatında Viktor Orban deyib: "Bu gün strateji məsələlərə dair müzakirələr aparıldı, bu günə qədər olan strateji əməkdaşlığımız növbəti səviyyəyə qaldırıldı və bu əməkdaşlıq genişləndirildi. Bunun səbəbi isə ondan ibarətdir ki, hər iki ölkə yaxşı dərk edir və aydın görür ki, təkcə Avropa deyil, dünyanın digər bölgələri də təhlükələrlə üz-üzədir.

Bu gün beynəlxalq münasibətlərdə olan mühit əvvəlkindən olduqca təhlükəlidir. Bizim qonşuluğumuzda baş verən müharibə və Brüssel tərəfindən tətbiq edilmiş sanksiyalar Macarıstan üçün olduqca təhlükəli bir vəziyyət yaradıb, bizim enerji təhlükəsizliyimiz, Avropanın enerji təhlükəsizliyi həssas məqama qədəm qoyub. Burada yaranan bu şərait Azərbaycanın əhəmiyyətini dərhal artırdı. Bu əhəmiyyət bir növ sıçrayış etdi. Azərbaycan hər zaman bizim dostumuz olub, indi isə o, artıq bütün Avropa üçün strateji tərəfdaş olan ölkədir. Bunu bu gün Avropada hər kəs anlayır ki, bizim bu vəziyyətə olan cavabımız şaxələndirmədir. Müxtəlif mənbələrdən maksimal dərəcədə nəql ediləbiləcək həcmdən söhbət gedir... Bu səbəbdən biz Azərbaycanın bu məsələyə sadiqliyini çox yüksək qiymətləndiririk ki, Azərbaycan Avropa İttifaqı ilə müvafiq sənəd imzalayıbdır. Həmin sənədə uyğun olaraq, 2027-ci ilə qədər Azərbaycan Avropaya nəql ediləcək qazın həcmini iki dəfə artıracaqdır.

Bununla yanaşı, biz digər bir saziş də imzalamışıq. Bir Azərbaycanda istehsal edilən elektrik enerjisini Avropaya gətirəcəyik. Xəritəyə baxsanız görərsiniz ki, həm təbii qaz, həm də elektrik enerjisi baxımından Azərbaycandan gələn bu enerji həcmləri Macarıstandan keçəcək. Ona görə də Macarıstan da bu məsələdə uduşlu vəziyyətdə olmaq arzusundadır. Həmçinin nəqliyyat marşrutu üzərində yerləşdiyimiz üçün Macarıstanın da rolu artacaqdır...

...Xatırlatmaq istərdim ki, mən cənab Əliyevlə Buxarestdə bu yaxınlarda da növbəti saziş imzaladıq və bununla da elektrik enerjisi kabeli Qara dənizin dibi ilə çəkiləcək və bu, Azərbaycandan olan yaşıl enerjini Avropaya gətirəcəkdir. Budur, bizim bugünkü şəraitimiz və bu, iki ölkənin rəhbərlərinin indiki görüşünü labüd edən bir şəraitdir.

...Bu gün, əlbəttə ki, enerji və qazla zəngin olan ölkənin dostları çox olur, amma əmin etmək istərdim ki, biz Azərbaycanla bundan çox uzun müddət əvvəl dost olmuşuq və bu əməkdaşlığa görə cənab Prezidentə təşəkkür edirəm".

Prezident İlham Əliyev isə öz bəyanatında strateji məqamlara toxunub: ...Bu gün imzalanan strateji tərəfdaşlığın dərinləşməsinə dair Birgə Bəyannamə bir daha bizim strateji tərəfdaşlığımızı təsdiqləyir. Bu, strateji tərəfdaşlığa dair imzalanmış ikinci sənəddir və bir daha onu göstərir ki, həqiqətən Macarıstan və Azərbaycan dost və strateji tərəfdaşdırlar. Əlbəttə ki, uzun illər ərzində apardığımız uğurlu siyasət, birgə addımlar bu gün enerji sahəsində əməkdaşlıq üçün də çox güclü zəmin yaratdı... Azərbaycan öz qaz resurslarını Avropa bazarlarına çatdırmaq üçün fəal çalışırdı və nəticə etibarilə iki il bundan əvvəl Cənub Qaz Dəhlizi icra edildi. Bu, çox müasir enerji infrastrukturudur, uzunluğu 3500 kilometrdir və artıq iki ildir ki, Azərbaycan Avropa İttifaqı məkanına öz təbii qaz resurslarını çatdırır.

Keçən il Avropa Komissiyası ilə imzaladığımız sənədə əsasən, biz qaz təchizatımızı 2 dəfə, bəlkə ondan da çox artırmağı planlaşdırırıq. Bunun üçün resurslar da var, siyasi iradə də var və tərəfdaşlarımızla təmaslar da var.

Çox şadam ki, vaxtilə tarixə qovuşmuş sayılan NABUKKO layihəsini biz indi canlandırmışıq. Artıq interkonnektorlar vasitəsilə Azərbaycan qazı Bolqarıstana, ondan sonra Rumıniyaya, ondan sonra Macarıstana və Macarıstandan sonra digər Avropa ölkələrinə çatdırılacaqdır. Biz bu barədə də müzakirələr apardıq. Macarıstan təkcə Azərbaycan qazının istehlakçısı deyil, eyni zamanda, Azərbaycan qazını digər Avropa ölkələrinə tranzit edən ölkə kimi fəaliyyət göstərəcək.

Əlbəttə, enerji təhlükəsizliyi məsələləri bugünkü dünyada xüsusi əhəmiyyət daşıyır və hesab edirəm ki, dünya gündəliyinin ön sıralarındadır. Azərbaycanın zəngin neft-qaz resursları imkan verir ki, uzun illər bundan sonra- təbii qazla bağlı ən azı 100 il bundan sonra Avropa üçün etibarlı tərəfdaş olsun. Avropa Komissiyasının rəhbərliyi Azərbaycanı məhz belə də adlandırır: etibarlı tərəfdaş.



Yaxın keçmişdə aşkarlanan böyük yaşıl enerji potensialı da Azərbaycanın önəmini daha da artırır. Əlbəttə ki, yaşıl enerji ilə bağlı olan və artıq icra olunan layihələr bizi Avropa üçün daha da yaxın edəcək. Hörmətli dostum qeyd etdiyi kimi, keçən ay imzalanmış sazişə əsasən, Azərbaycan yaşıl enerjisini Avropaya çatdıracaq və bu gün bu məsələlər bir daha müzakirə edildi. Bir neçə gündən sonra Bakıda keçiriləcək birinci rəhbər komitədə bu layihədə cəmləşən ölkələr - Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya bir araya gələrək gələcək fəaliyyətin konsepsiyası üzərində işləməyə başlayacaqlar.

Bu, çox böyük sərmayə tələb edən layihədir. Burada həm yaşıl enerjinin istehsalı, ötürülməsi, bazarlara çatdırılması, eyni zamanda, Qara dənizin dibi ilə kabelin çəkilməsi - bütün bu layihələr böyük maliyyə mənbəyi tələb edir, eyni zamanda, çox ciddi koordinasiyanı tələb edir. Ona görə biz Bakıda fevralın 3-də keçiriləcək toplantıda ilkin addımı atacağıq və beləliklə, Avropa qitəsinin enerji təhlükəsizliyi daha dolğun və əhatəli şəkildə təmin ediləcəkdir.

Bizim əməkdaşlığımızın böyük hissəsi enerji məsələlərinə həsr olunsa da, təkcə bu məsələlərlə məhdudlaşmır. Biz, eyni zamanda, nəqliyyat sahəsində çox böyük planlarımızı həyata keçiririk. Deyə bilərəm ki, biz dəmir yolları vasitəsilə artıq Macarıstandan Azərbaycana, Azərbaycandan Macarıstana yüklərin ötürülməsinə başlamışıq. Bu layihənin də böyük potensialı var. Çünki Rusiya-Ukrayna müharibəsindən sonra Azərbaycan ərazisindən keçən yüklərin həcmi kəskin artmışdır. Təkcə keçən il tranzit yüklərin həcmi 75 faiz artmışdır. Azərbaycanda mövcud müasir nəqliyyat infrastrukturu - istər tankerlər, gəmilər olsun, istər böyük dəniz ticarəti limanı olsun, dəmir yolları olsun, bunlar hamısı müasirdir və bütün lazımi tələblərə cavab verir. Ona görə Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkə olsa da, hesab edirəm ki, Avrasiyanın önəmli nəqliyyat-logistika mərkəzlərinin birinə çevrilə bilər. Burada Avropa ölkələri ilə və xüsusilə bizim üçün Avropa İttifaqı arasında ən yaxın tərəfdaşlarımızdan biri olan Macarıstanla əməkdaşlıq üçün çox yaxşı imkanlar var".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban Azərbaycan Respublikası ilə Macarıstan arasında genişləndirilmiş strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni imzalayıblar.

Ümumiyyətlə, yaranmış gərgin qlobal mühitdə iqtisadi əməkdaşlıqlar və enerji təhlükəsizliyinin necə vacib məsələ olduğu bir daha aydın oldu. Belə bir məqamda Azərbaycanın əhəmiyyəti daha da artdı. Özünü eibarlı tərəfdaş kimi göstərən Azərbaycan bütün ölkələrlə normal qarşılıqlı əlaqələr quran, iqtisadi və digər sahələrdə əməkdaşlığı inkişaf etdirməyə çalışan, enerji ölkəsi kimi dünyada öz yerini tutan bir dövlət kimi tanınıb. Öz zəngin resursları ilə həm iqtisadi, həm də siyasi gücünü artıran Azərbaycan artıq nəinki regionda hətta dünyada öz nüfuzunu təmin edib. Enerji mənbəyi və nəqliyyat dəhlizlərinin qovşağına çevrilən ölkəmizlə artıq uzaq ölkələr də hesablaşır. Xüsusən də, Avropanın Azərbaycana ehtiyacı getdikcə artır.

Hazırda Ukraynada yaranmış vəziyyət, Rusiya və Avropa arasında qarşılıqlı sanksiyalar mühitində bir çox Avropa ölkələrində enerji böhranı yaranır. Bu səbəbdən Avropa İttifaqı alternativ enerji mənbələrinə möhtacdır və bunun üçün də ən yaxşı ölkə Azərbaycandır. Belə bir vəziyyətdə Azərbaycan mövcud potensialı və perspektivləri hesabına bu bazarda özünə layiqli yer tutmağa başlayır. Buradan isə təksə iqtisadi yox, həm də siyasi dividentlər əldə ediləcək. Hər iki cəhətdən bu vəziyyət ölkəmizin xeyrinədir. Azərbaycan öz enerjisi ilə neçə ölkələri vəziyyətdən çıxarır və nəticədə təsir imkanlarını çoxaldır, bununla da dünyada öz nüfuzunu getdikcə artırır.

Prezident İlham Əliyevin apardığı siyasət Azərbaycanı dünyanın hesablaşdığı güclü dövlətə çevirib. Və artıq təkzibedilməz faktdır ki, bu siyasətin alternativi yoxdur.

***Elçin Bayramlı***

AXAR.AZ

SON SƏHİFƏ
SƏS
1 fevral
2023-cü il

# Alimlər Yerin "ürəyinin" dayandığını aşkar ediblər



Pekin Universitetinin alimləri Yerin daxili nüvəsinin fırlanmağı dayandırdığını bildiriblər. Tədqiqatçılar əmin ediblər ki, bu, hər 35 ildən bir baş verir. Planetin nüvəsi Pluton ölçüsündə bərk dəmir və nikeldən ibarət isti, sıx bir kürədir. Bütün Yerdən ayrı olaraq öz oxu ətrafında fırlanır. Tədqiqatçılar hesab edirlər ki, bu fırlanma sürəti daim dəyişir, eləcə də istiqaməti dəyişir.

Cənubi Kaliforniya Universitetinin geofiziki Con Vidale "Baş verənlər tam başa düşülməyib, lakin müşahidə etdiyimiz dəyişikliklər olduqca məqbuldur" deyib. Daxili nüvənin fırlanması seysmik dalğaların trayektoriyasına təsir göstərir. 2009-cu ildən bəri həmin trayektoriya dəyişməyib, bununla əlaqədar olaraq alimlər Yerin "ürəyinin" dayandığı qənaətinə gəliblər.

# 2022-ci ildə 10 min 500-ə yaxın əsər üzə çıxarılıb

Dünyanın ən qədim yaşayış məskənlərinə ev sahibliyi edən Anadolu torpaqları əvəzsiz tarixi zənginliyi ilə diqqət çəkir. SİA xəbər verir ki, Türkiyə, qədim sivilizasiyalara aid saysız-hesabsız qeyri-adi tarixi əsərlərə ev sahibliyi edir və bunların bir çoxu qazıntılar əsnasında tapılaraq muzeylərə gətirilir. Son iki əsrdə Anadoluda bəşəriyyətin mədəni irsini işıqlandırmaq üçün arxeoloji tədqiqatlar aparılıb və bu gün də ölkə daxilində araşdırmalar davam edir.

Muzey fəaliyyətlərində qabaqcıl olan Türkiyə arxeoloji tədqiqatlarda da nümunəvi ölkədir. 2022-ci ildə ölkə sərhədləri daxilində ümumilikdə 713 arxeoloji fəaliyyət həyata keçirilib. Yeddi bölgədə qazıntılara, həmçinin konservasiya işləri və akademik nəşrlərə ev sahibliyi edən Türkiyə, bu sahədə önə çıxır. Qazıntı, arxeoloji tədqiqat, geofiziki georadar və təmizlik işləri kimi bir sıra fəaliyyətləri dəstəkləyən Türkiyə arxeoloji tədqiqatlar baxımından dünyanın ən məhsuldar ölkələri arasında göstərilir.



## Türkiyə boyu arxeoloji tədqiqatlar

2022-ci ildə Türkiyədə həyata keçirilən işlər çərçivəsində 160-ı Türkiyə elmi nümayəndə heyətləri, 32-si xarici elmi nümayəndə heyətləri və 57-si Muzey Müdirliklərinin rəhbərliyi altında olmaqla, ümumilikdə 249 arxeoloji qazıntı aparılıb. Həmçinin Muzey Müdirliklərinin rəhbərliyi ilə 187 xilasetmə qazıntısı, 10 dövlət investisiya sahəsi xilasetmə qazıntısı və 89 sondaj tipli qazıntı işləri aparılmışdır.

Türkiyə həm də qədim zamanlardan qalma gəmi qəzaları və sənət əsərləri ilə dəniz arxeologiyasının mərkəz nöqtəsidir. Ölkədə 7 dəniz qazıntısı və 3 tədqiqat işi aparılıb.

İl ərzində Türkiyə daxilində aparılan qazıntılara əlavə olaraq, davam edən səth tədqiqatları, geofiziki georadar və təmizlik işləri ilə ölkədə arxeoloji fəaliyyətlərin ümumi sayı 713-ə çatıb. Detallı araşdırmalar nəticəsində muzeylərə 10.500-ə yaxın tarixi əsər gətirilib.

Keçən il ən çox arxeoloji işlərə ev sahibliyi edən bölgə, 54 fəaliyyətlə, Egey və Aralıq dənizini birləşdirən Muğla oldu. Yüzlərlə qədim şəhər və xarabalığı ilə 8 min illik tarixə işıq tutan Muğlanın davamışı isə 41 arxeoloji araşdırma ilə Egeyin incisi İzmir oldu.

## 2022-ci ildə Arxeologiya Səhnəsindən diqqət çəkən məqamlar

Laodikiya Qədim Şəhərinin Qərb Teatrında aparılan bərpa işləri başa çatıb. Dənizli sərhədləri içərisində olan Laodikya, e.ə. 1-ci əsrdə Anadolu coğrafiyasının ən əhəmiyyətli və məşhur şəhərlərindən biri idi. Laodikiya Antik Şəhərinin bərpa edilmiş Qərb Teatrı yenidən mədəni tədbirlərə ev sahibliyi etməyə başlayıb.

Dənizlidə Mədəniyyət və Turizm Nazirliyi, Pamukkale Universiteti və Dənizli Böyükşəhər Bələdiyyəsinin əməkdaşlığı ilə 1979-cu ildən bəri fasiləsiz olaraq hər il keçirilən Beynəlxalq Qazıntı, Araşdırma və Arxeometriya Simpoziumu baş tutub. Tədbirdə çoxlu sayda yerli və xarici alim və tələbə iştirak edib.

2023-cü il üçün sahə tədqiqatları ilə bağlı planlaşdırma və qiymətləndirmələr davam edərkən, 2023-cü ildə Türkiyənin tarixi zənginliyini gələcək nəsillərə ötürmək üçün təxminən 750 arxeoloji fəaliyyətin həyata keçirilməsi gözlənilir.

*Banuçiçək Hüseynli*



# Keçmiş məhkum avtobusda oğurluq edib

Sumqayıt Şəhər Polis İdarəsi 1-ci polis bölməsi əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində şəhər ərazisində marşrut avtobusunda bir qadının çantasından içərisində pul və bank kartları olan cüzdanını oğurlamaqda şübhəli bilinən Sumqayıt sakini, əvvəllər narkotiklərlə əlaqəli cinayətə görə məhkum olunmuş Ramil Hümbətov saxlanılıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, araşdırmalarla onun əvvəllər dəfələrlə məhkum olunmuş həmyerlisi ilə birgə Nərimanov rayonu ərazisində digər bir qadının çantasından içərisində pul, sənəd və bank kartı olan cüzdanını, hesabından isə 312 manatını çıxararaq oğurlaması da müəyyən olunub. Faktla bağlı araşdırma aparılır.

# Ölkədə niyə dərman qıtlığı yaşanır?

*MƏSƏLƏYƏ AYDINLIQ GƏTİRİLDİ*

**Son zamanlar ölkəmizdə dərmanlarda 7-8 dəfə qiymət artımı müşahidə olunur. Bəs buna səbəb nədir? Bu kimi hallara qarşı hansı tədbirlər görülməlidir? Ölkədə niyə dərman bolluğu yoxdur? SİA mövzu ilə bağlı Milli Məclisin Səhiyyə Komitəsinin deputatı Kamilə Əliyevanın fikirlərini öyrənib. Onun sözlərinə görə, bu problem hələ də mövcuddur: "Ümumiyyətlə Azərbaycanda dərmanlar cüzi miqdarda istehsal olunur. Əksər dərmanları biz digər dövlətlərdən alırıq. Ölkəmizə ən çox dərman idxalı isə Rusiya, Ukrayna, Avropa və Asiya ölkələrindən olur. Qiymətlərin yüksək olması da bununla bağlıdır".**

Deputat sözlərinə belə davam edib: "Respublikanın hər yerində dərmanların satışı vahid qiymətə həyata keçirilir. Bunun üçün də xüsusi reyestrlər var ki, həmin reyestrlərdə dərmanların hamısının qiyməti göstərilir.

Avropadan bizə idxal olunan dərmanlar daha başa gəlir. Qonşu ölkə olan Türkiyə ilə müqayisədə bizdə dərman qiymətləri çox yüksəkdir. Dərman qıtlığının digər bir səbəbi isə Rusiya ilə Ukrayna arasında gedən müharibədir. Bu səbəbdən Azərbaycana daxil olan dərmanlarda gecikmə və problemlər müşahidə olunur.



Ümumiyyətlə, dərmanlar tərkibinə görə yazılmalıdır ki, insanlar bu dərmanların əldə edilməsində çətinlik çəkməsinlər. Çünki eyni tərkibə malik olan dərmanlar müxtəlif ölkələr tərəfindən fərqli adla istehsal olunur. Əgər biz hansısa bir dərmanı həmin adla tapmırıqsa, həmin tərkibdə digər ölkənin istehsal etdiyi dərmanı tapmaq mümkündür. Həkimlər də belə məsələlərdə diqqətli olmalıdır ki, insanlar dərmanı tapmaqda çətinlik çəkməsinlər. Güman edirəm ki, yaxın gələcəkdə Azərbaycanda da dərman istehsalı ilə bağlı zavodlar tikilsin və dərman qıtlığının qarşısı alınsın".

*Ayşən Vəli*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**